

**AHİK-in İcraiyyə Komitəsi Azərbaycan xalqını, o cümlədən həmkarlar ittifaqı üzvlərini 28 May-Respublika Günü münasibətilə təbrik edir.**


# ülfat

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 27 MAY 2021-Cİ İL / № 20 (1238)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU


## Rəsmi xronika



## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

**(mayın 24-də)**
...Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.
...Apellyasiya məhkəmələri sədrlərinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

**(mayın 25-də)**
...İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib.
..."Signify" - əvvəlki adı "Philips Lighting" olan şirkətin baş icraçı direktoru Erik Rondolatı və şirkətin rəhbərliyinin digər nümayəndələrini qəbul edib.

**(mayın 26-da)**
...Azərbaycan Respublikasında modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında Sərəncam imzalayıb.
...Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.
..."Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

## Vətən müharibəsi qazilərinə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim edilib

BAX SƏHİFƏ: 7

## AHİK-də 28 May - Respublika Günü münasibətilə onlayn formatda tədbir keçirilib



**Dünən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 28 May - Respublika Günü münasibətilə onlayn formatda yığıncaq keçirilib. Yığıncaqda AHİK sədri, millət vəkili Səttar Möhbalıyev geniş mətnlə çıxış edib. O, əvvəlcə tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edib. Deyib ki, hər bir xalqın tarixinin zənginliyi onun qurub yaratdığı dövlətlərin qüdrəti ilə ölçülür.**

Dövlət qurub yaratmaq, inkişaf etdirmək, yaşatmaq, onun ətrafında birləşmək mədəniyyəti bizim xalqa ta qədimdən xas olan xüsusiyyətlərdəndir. Ən qədim dövrdən bu günə kimi Azərbaycan ərazisində mövcud olmuş böyük imperiyalardan tutmuş kiçik dövlətlərə qədər bizim dövlətçilik ənənələrimizdən xəbər verir.

**Sahib olduğumuz Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular kimi dövlətlərimiz, həmçinin Səfəvilər imperiyası Yaxın və Orta Şərqin ictimai-siyası həyatında mühüm rol oynamış, dərin iz qoymuş və xalqımızın şanlı tarixinə çevrilmişdir.**

BAX SƏHİFƏ: 2-3

## Xüsusi karantin rejiminin müddəti avqustun 1-dək uzadılıb



**Mayın 26-da Nazirlər Kabineti xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə Qərar qəbul edib.**

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 avqust saat 06:00-dək uzadılıb.

**31 may saat 06:00-dan etibarən:**

-açıq havadakı ictimai yerlərdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) istifadə edilməsi tələbi ləğv edilir;

- Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti bərpa edilir;

- ölkənin şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımaları bərpa edilir.

**10 iyun saat 00:00-dan aşağıdakı iş və xidmət sahələrinin fəaliyyəti bərpa edilir:**

- dini ibadət yerlərinin (eyni vaxtda ibadət üçün nəzərdə tutulan yerlərin 50 faizindən (ümumi olaraq 50 nəfərdən) çox olmamaqla);

- iri ticarət mərkəzlərinin (nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların fəaliyyəti istisna olmaqla);

- idman və sağlamlıq-bərpa obyektlərinin (tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbi olmadan);

- çimərliklərin və onların ərazisində yerləşən hovuzların, su attraksionlarının və idman oyunu yerlərinin.

Yaşı 18-dən aşağı olan şəxslərdən başqa, idman və sağlamlıq-bərpa obyektlərindən yalnız COVID-19 pasportu (COVID-19-a qarşı peyvənd sertifikatına malik olan) və ya COVID-19-a qarşı immunitet sertifikatı (COVID-19-dan sağalaraq immunitetə malik olan) olan şəxslər istifadə edə bilərlər.

2021-ci il iyulun 1-dən etibarən COVID-19 pasportu və ya COVID-19-a qarşı immunitet sertifikatı tələbi müəyyən edilən iş və xidmət sahələrinin işçilərinin ən azı 80 faizinin belə pasporta və ya sertifikata malik olması tələb olunur.

**2021-ci il 5 iyun saat 00:00-dan 7 iyun saat 06:00-dək, 13 iyun saat 00:00-dan 14 iyun saat 06:00-dək, 19 iyun saat 00:00-dan 20 iyun saat 06:00-dək, 26 iyun saat 00:00-dan 28 iyun saat 06:00-dək ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılacaq.**

## Koronavirus infeksiyasından daha 596 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 596 nəfər müalicə olunaraq sağalıb, 203 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 333 min 97 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 322 min 273 nəfər müalicə olunaraq sağalıb, 4885 nəfər vəfat edib. Aktiv xəstə sayı 5939 nəfərdir.

**Ötən müddət ərzində 3 milyon 477 min 12 test aparılıb. Bugünkü test sayı isə 8397-dir.**

## ƏDV-nin tətbiqi vergidən yayınmanı məhdudlaşdırdı

BAX SƏHİFƏ: 6

## "Baku İnternational Tobacco" MMC-nin Həmkarlar İttifaqı Komitəsi yaranıb

BAX SƏHİFƏ: 4

## Pandemiyanın yaratdığı demoqrafik problemlər

BAX SƏHİFƏ: 6

## Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

## Beynəlxalq Əmək Konfransı onlayn rejimdə işə başlayıb

BAX SƏHİFƏ: 7

## "Azərbaycan əsgəri" bədii-qiraət müsabiqəsi

BAX SƏHİFƏ: 8

# AHİK-də 28 May - Respublika Günü münasibətilə onlayn formatda tədbir keçirilib



**Dünən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 28 May - Respublika Günü münasibətilə onlayn formatda yığıncaq keçirilib. Yığıncaqda AHİK sədri, millət vəkili Səttar Möhbalıyev geniş mətnlə çıxış edib. O, əvvəlcə tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edib. Deyib ki, hər bir xalqın tarixinin zənginliyi onun qurub yaratdığı dövlətlərin qüdrəti ilə ölçülür.**

Dövlət qurub yaratmaq, inkişaf etdirmək, yaşatmaq, onun ətrafında birləşmək mədəniyyəti bizim xalqa ta qədimdən xas olan xüsusiyyətlərdəndir. Ən qədim dövrdən bu günə kimi Azərbaycan ərazisində mövcud olmuş böyük imperiyalardan tutmuş kiçik dövlətlərə qədər bizim dövlətçilik ənənələrimizdən xəbər verir.

Sahib olduğumuz Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular kimi dövlətlərimiz, həmçinin Səfəvilər imperiyası Yaxın və Orta Şərqin ictimai-siyası həyatında mühüm rol oynamış, dərin iz qoymuş və xalqımızın şanlı tarixinə çevrilmişdir.

**Bununla yanaşı, keçmişin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyaların tərkibinə qatılmaq məcburiyyətində qalmışıq. Amma buna baxmayaraq, nə qədər zaman keçməsindən asılı olmayaraq, dövlətçilik ənənələrimizi unutmamışıq. Məhz bu ənənələrə söykənən xalqımız 1918-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin əsasını qoydu.**

S.Möhbalıyev bildirib ki, Cümhuriyyətin yaranmasına aparan yol heç də rahat olmayıb. Azərbaycan Xalq Cümhuriyyəti dünyanın siyasi düzəninin yenidən qurulduğu bir vaxtda Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxdı.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyaları xalqımızda milli hisslərin oyanmasında, milli özünüdərkdə, milli şüurun inkişafında və milli hərəkatın yaranmasında mühüm rol oynadı. Yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırlandı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin inkişafına mühüm təsir göstərirdilər. İstiqlal məsələsində Əli bəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və başqaları müstəsna rol oynayırdılar. Onlar xalqın taleyi ilə bağlı məsələlərdə məsuliyyəti üzərlərinə götürməklə xalqın gələcəyini düşünən ziyalıları bir araya gətirir və təzyiqlərə baxmayaraq, istiqlal yolunda mübarizə aparırdılar. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər. Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

Bu birliyə siyasi təzyiqlə yanaşı, qanlı hadisələr törətməklə mane olmağa çalışırdılar. Qeyd edək ki, 1918-ci ilin martında erməni daşnak və Bakı Soveti qüvvələrinin Bakıda və Bakı quberniyasında azərbaycanlılara qarşı törədikləri soyqırımı xalqımızın mübarizə əzmini qıra bilmədi. Onların məqsədi istiqlal tərəfdarlarını məhv etmək, onun sosial dayaqlarını dağıtmaq, Bakı neftinə sahib olmaq, Azərbaycanın Rusiyadan ayrılmasına imkan verməmək idi. Lakin bütün bu təzyiqlərə baxmayaraq, 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi.

**Bəyannamə ilə demokratiyanın əsas prinsipi kimi ölkə ərazisində xalqın hakimiyyəti bərqərar oldu. Görünən odur ki, bu gün demokratiyadan uzun-uzadı söz açan, ölkəsini nümunə çəkən, digər dövlətləri bu məsələdə ittiham edən ölkələrdə istibdadın tüğyan etdiyi bir vaxtda biz demokratik prinsiplər əsasında respublika qurmuşuq.**

Xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldıran ilk ölkələrdən biri oldu. Bütün bunlar Azərbaycanın sülhsevər, tolerant, birgəyaşayış dəyərlərinə sədaqətinin dərin köklərini göstərir.

AHİK sədri deyib ki, Cümhuriyyət dönəmindəki şərəfli addımlardan biri də Şərqdə qadınlara ilk dəfə səsvermə hüququnun verilməsidir. Bu, ölkədə gender bərabərliyinin təmin olunmasının parlaq əlaməti idi.

Məlumat üçün qeyd edim ki, dünyada qadına seçki hüququnu verən ilk dövlət 1893-cü ildə Yeni Zelandiya olub. Hazırda hələ də bəzi ölkələrdə qadınlar ya qismən, ya da tamamilə seçki hüququndan məhrum edilmiş durumdadırlar.

Müqayisə üçün bildirim ki, ABŞ-da qadınlara ilk dəfə 1920-ci ildə seçmək hüququ verilib. İndi Avropanın qabaqcıl ölkələrindən sayılan Fransada qadınlara səsvermə hüququ yalnız 1944-cü ildə, İsveçrədə isə 1971-ci ildə verilib.

**Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifələri ləyaqətlə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi. Həmin dövrdə Azərbaycanın ərazisi 113,9 min kv. km, əhalisi isə 4 mln. 617 min 671 nəfər idi. Bu da Cənubi Qafqazın əhalisinin yarısından çox idi.**

Azərbaycan Xalq Cümhuriyyəti özünün əsas atributlarını - bayrağını, himnini və gerbini yaratdı. Həmçinin ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı.

Bir məsələnin xüsusi əhəmiyyətini vurğulamaq istərdim. Əvvəl Gəncəni özünə paytaxt edən hökumətin başlıca məqsədi ölkənin paytaxtı olan Bakı şəhərini yadellilərdən azad etmək idi. Köməyə gələn türk hərbçilərindən və azərbaycanlılardan ibarət qurulan Qafqaz İslam Ordusu 1918-ci ilin sentyabrın 15-də Bakını azad etdi. Azərbaycan hökuməti azərbaycanlıların tarixi, siyasi, mədəni, iqtisadi, mənəvi, təbii paytaxtına köçdü. Bakının azad edilməsi Cümhuriyyətin elan edilməsindən sonra tarixi əhəmiyyətinə görə ikinci böyük hadisə idi.

Həmçinin milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universitetinin - Bakı Dövlət Universitetinin təsis olunmasının xüsusi əhəmiyyəti var idi. Təbii ki, yenicə müstəqilliyə qovuşmuş ölkədə peşəkar kadrlar təbəqəsinin yaradılmasına böyük ehtiyac var idi. Bu ehtiyacı ödəməsi işində BDU əvəzsiz xidmətlər göstərdi.

Bundan başqa, həmin dövrdə təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mühüm işlərdən biri də 1918-ci il noyabrın 20-də 120 nəfərdən ibarət parlamentin formalaşdırılması oldu. 11 fraksiyadan ibarət parlament fəaliyyəti dövründə 155 iclas keçirdi. Müzakirəyə çıxarılan 270-dən çox qanun layihəsindən 230-u qəbul edildi. Qəbul edilmiş qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan parlamenti milli və dini tolerantlıq baxımından hətta Qərb ölkələri üçün bir model idi.

**Millət vəkili vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xarici siyasətinin başlıca məqsədi mənsub olduğu dövləti beynəlxalq miqyasda tanıtmaq idi. Buna görə də yarandığı vaxtdan fəal xarici siyasət yeritməyə başladı. İlk növbədə Avropa ölkələrinə yeni bir dövlətin yaradılması barədə məlumat göndərildi. Hökumət 1918-ci il iyun ayının 4-də Batumda Osmanlı ilə dostluq müqaviləsi bağladı, İstanbul konfransına Məhəmməd Əmin Rəsulzadə və Aslan bəy Səfikürdskidən ibarət heyət göndərildi. Azərbaycan məsələsi ilk dəfə olaraq 1919-cu il mayın 2-də Dördlər Şurasının iclasında müzakirə edildi. Azərbaycan nümayəndə heyəti bir sıra görüşlər keçirdi. Əlimərdan bəy Topçubaşov 1919-cu il mayın 28-də ABŞ prezidenti Vudro Vilsonla görüşdü, onu ABŞ-ın Azərbaycanla əməkdaşlıq etməsinin faydalı olacağını inandırmağa çalışdı. 1920-ci il yanvarın 11-də Azərbaycanın dövlət müstəqilliyi böyük dövlətlər tərəfindən de-fakto olaraq tanındı. Bu tanınma Cümhuriyyətin elan edilməsindən sonra əhəmiyyətinə görə üçüncü böyük tarixi hadisə olub, Azərbaycan xalqının iradəsinin təntənəsi idi.**

Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi.

Cümhuriyyətin yaradılması və fəaliyyəti müsəlman dünyasına Respublika məfhumunu gətirdi. Azərbaycan xalqı müstəmləkə zülmü altında inləyən xalqlara xilas yolunu göstərdi. Onların ürəyində ümid çırağı yandırdı. Əbəs deyil ki, Cümhuriyyət yaradıldıqdan sonra Sibir sürgünündə azərbaycanlılarla yanaşı zülm çəkən yüzlərlə ərəb, fars, əfqan və başqa xalqların nümayəndələri Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşı olmaqdan ötrü İrkutskdakı Azərbaycan konsulluğuna müraciət etmişdilər.

**S.Möhbalıyev qeyd edib ki, Cümhuriyyətin süqutundan sonra siyasət və dövlət xadimlərinin bir qismi xarici ölkələrə mühacirət etməyə məcbur qaldı. Bir qismi isə erməni və bolşevik terrorunun qurbanı oldu. 20-30-cu illərdə milli düşüncəli ziyalılar repressiya edildilər. Amma sovet repressiya aparatı istiqlal fikrini məhv edə bilmədi. Milli ruhlu ziyalılar 70-80-ci illərdə Heydər Əliyevin qayğısı ilə əhatə olundular. Müstəqil dövlət üçün lazım olan təməllər məhz bu illərdə düşünülmüş şəkildə hazırlandı. Nəhayət, Cümhuriyyət artibutları ilk dəfə olaraq rəsmi şəkildə Naxçıvanda Heydər Əliyevin liderliyi sayəsində qəbul edildi. Naxçıvan müasir Azərbaycan dövlətçiliyinin təməli oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi oldu.**

Heç kəsə sirr deyildir ki, sovet dövründə Cümhuriyyətin dövlət səviyyəsində bayram ediləcəyi xəyallara belə gəlmirdi. Amma ölkəmizdə milli tariximizə, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına və inkişafına dövlət səviyyəsində xüsusi diqqət yetirilir. Artıq 1998-ci ildə ümummilli lider, Prezident Heydər Əliyevin imzaladığı Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin qeyd edilməsi barədə sərəncamından sonra bu sahədə xeyli işlər görüldü. Cümhuriyyət dövrü tarixinin sistemli araşdırılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ölkəmizdə Cümhuriyyət tarixinə xüsusi qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizin paytaxtında Cümhuriyyət xadimlərimizin şərəfinə abidə ucaldılıb. Onların xatirəsi əbədiləşdirilib. Adlarına küçə, prospekt və qəsəbələr vardır. Görkəmli xadimlər haqqında sənədli filmlər çəkilib. Xarici ölkələrdəki məzarları təmir edilib. Cənab Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci il (Cümhuriyyətin 100-cü ildönümü münasibətilə) Azərbaycanda Xalq Cümhuriyyəti ili elan edildi və bu məqsədlə ölkəmizdə geniş tədbirlər həyata keçirildi.

Azərbaycanda müstəqilliyin qorunub saxlanılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər keçən əsrin 90-cı illərində Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi dövrdə onun rəhbərliyi ilə nəinki Naxçıvan üçün, bütöv Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan MSSR- in adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırıldı. Bir qədər əvvəl dediyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı elan edildi. Azərbaycanın Ali Məclisinin qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanılması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etmədi. O illərdə də Ulu Öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür.

1991-ci il oktyabrın 18-də ovaxtkı Ali Sovetdə Müstəqillik Aktı qəbul olundu. Beləliklə, Azərbaycan ikinci dəfə özünün dövlət müstəqilliyini elan etdi. Yeni elan olunmuş müstəqillik təhlükə altında idi. Sosial-iqtisadi, siyasi problemlər, vətəndaş müharibəsi şəraiti ölkədə ictimai-siyasi gərginliyi dərinləşdirir, anarxiyaya meydan açırdı. Xalq çıxış yolunu H.Əliyevin ölkə liderliyinə dəvət edilməsində gördü.

**1993-cü ildə xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldi. Onun müdrik siyasəti nəticəsində ölkəmizdə xaotik proseslərin qarşısı alındı, ictimai siyasi sabitlik təmin edildi. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı. 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu. Ən əsası 1994-cü il mayın 18-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş meydan verildi. 1994-cü il sentyabrın 20-də isə Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycan dünya xəritəsində mövqeyini möhkəmləndirdi.**

Ulu Öndərin rəhbərliyi ilə 1995-ci ildə müstəqil dövlətimiz tərəfindən qəbul edilən Konstitusiya, respublikada qəbul edilmiş hüquqi və siyasi aktların hamısı dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsinə, insan haqlarının qorunmasına, demokratiyanın inkişafına xidmət etməyə başladı.

Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab olunur. Ümummilli lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ulu Öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizimdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

**"Biz xalqın xidmətçisiyik", - deyən Azərbaycan Prezidenti cənab İlham Əliyev ötən 17 ildə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir fərdin marağına cavab verən çevik və qətiyyətli qərarlar qəbul edib. Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni-humanitar sahələrdə əldə etdiyi yüksək nəticələrin möhkəm təməl üzərində formalaşmış ictimai-siyasi sabitlik amili ilə şərtləndiyini, həmrəyliyə və vətəndaş sülhünə əsaslandığını xalqımız yüksək qiymətləndirir. Bu gün dövlət başçısı İlham Əliyevin yeritdiyi məqsədyönlü strategiya nəticəsində respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, milli barışıq mühiti demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə sürətli iqtisadi tərəqqinin başlıca təminatlarından biridir.**

Müasir dövrdə hər bir dövlətin gücü və qüdrəti "insan meyarı", yəni həyat keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin önə çəkilməsi ilə ölçülür. Şəxsiyyət azadlığı, insanların maddi rifah səviyyəsi, hər bir fərdin özünü cəmiyyətdə təsdiqetmə imkanı - "insan meyarının" bu və digər elementləri onu dövlətin inkişafının qiymətləndirilməsinin əsas meyarlarına çevirir.

AHİK sədri nəzərə çatdırıb ki, Azərbaycanın müstəqilliyi dövründə keçdiyi tarixi yol hamımız üçün əziz olmalı, görülən işlərin əhəmiyyəti, onların xalqımızın maraqlarına tam cavab verməsi layiqincə qiymətləndirilməlidir. Respublikamız ikinci dəfə müstəqillik qazandıqdan sonra Azərbaycan dövləti çox möhkəmlənmiş, dünya miqyasında onun imici daha da artmış və bu gün ölkə iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

**İqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparıldı. Milli ideologiyamız yaradılmış, dövlətçiliyin əsasları qoyulmuş, ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən neft kontraktları imzalanmışdır.**

davamı səhifə 3-də




# AHİK-də 28 May - Respublika Günü münasibətilə onlayn formatda tədbir keçirilib

əvvəli səhifə 2-də

**Azərbaycanın nefti və qazı dünya bazarına çıxarılmış, ölkəmizin regional layihələrdə iştirakı daha da genişləndirilmişdir. Bu yolda atılan addımlar Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Azərbaycanın ictimai və siyasi palitrasında baş verən bu dəyişikliklər ulu öndər H.Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını inamla və dönmədən davam etdirən möhtərəm Prezidentimiz İ.Əliyevin adı ilə bağlıdır.**

Bu inkişaf respublikamızın milli maraqlarına tam cavab verir. Artıq Azərbaycan dünya birliyi ailəsində özünəməxsus yer tutur. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi çəkiyə malik olmaqla, ATƏT, BMT, İƏT, GUAM, Avropa Şurası kimi nüfuzlu beynəlxalq və regional təşkilatların üzvüdür. Azərbaycanın beynəlxalq arenada oynadığı rol dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama hərəkatında ölkəmizin mövqeləri möhkəmdir.

**Millət vəkili deyib ki, bütün bunlar, nəhayət, öz bəhrəsini verdi. Ölkə başçısının, Ali Baş Komandanın qətiyyəti nəticəsində Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməsinə və beynəlxalq hüquq normalarına tam uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etməyə başladı.**

Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazandığımız layiqli qələbə bu gün hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, hər kəsdə qürur və fəxarət hissi doğurur.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev haqlı olaraq müharibənin başlanmasının məsuliyyətinin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü qeyd etmişdir. Ermənistan işğalçılıq siyasətini uzun illər ərzində davam etdirərək beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymamış, işğalçılıq niyyətindən əl çəkməmişdir.

**Ərazisi işğala məruz qalmış Azərbaycanın 30 ilə yaxın müddətdə diplomatik təmkin nümayiş etdirməsi, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşması, lakin bunun müqabilində işğalçı Ermənistana ciddi beynəlxalq təzyiqin göstərilməməsi son illərdə vəziyyəti daha da gərginləşdirmişdi. Beynəlxalq təşkilatların münaqişə ilə bağlı qətnamə və bəyanatlarına məhəl qoymayan İrəvan aşkar şəkildə ərazi ilhaqı siyasəti yürüdürdü. Ermənistan rəhbərliyinin son 2 ildə danışıqlardan faktiki olaraq imtina edərək Azərbaycana qarşı qəbuledilməz və əsassız şərtlər irəli sürməsi, terrorçu qruplaşmaları, muzdlu döyüşçüləri işğal etdiyi ərazilərimizdə yerləşdirməsi, cəbhə bölgəsində və qoşunların təmas xəttində açıq təxribatlar törətməsi hərbi əməliyyatların bərpası ehtimalını zamanla daha da artırırdı. Bu azmış kimi Şuşa şəhərində qondarma Dağlıq Qarabağ rejiminin "rəhbəri"nin "andiçmə mərasimi"nin təşkili, "Dağlıq Qarabağ parlamenti"nin Xankəndidən Şuşaya köçürülməsi barədə qərarın qəbulu düşmənin növbəti təxribatları idi.**

Beləliklə, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti üzündən 30 il müddətində həllini tapmayan münaqişənin qısa müddətdə hərbi-siyasi həllinə nail olaraq beynəlxalq hüquq normalarının və ədalətin bərpasını təmin edib. Azərbaycan döyüş meydanında parlaq qələbə qazanmaqla, siyasi meydanda da istəyinə nail olub. 44 günlük müharibədə 5 min kvadratmetrədək ərazisini, 5 rayonunu, 2 şəhər tipli qəsəbəsini, 300-dək kəndini işğaldan azad edən Azərbaycan Ermənistanı hərbi kapitulyasiya barədə sənədi imzalamağa məcbur etdi. Üçtərəfli 10 noyabr sazişinin imzalanması ilə faktiki olaraq Ermənistan-Azərbaycan münaqişəsi artıq tarixə çevrilib.

İşğalçı siyasət yürüdən Ermənistan faktiki olaraq Azərbaycanın liderliyi ilə regionda həyata keçirilən bütün strateji əhəmiyyətli neft-qaz, nəqliyyat-kommunikasiya, logistika layihələrindən məhrum olmaqla özünütəcrid vəziyyətinə düşüb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TAP, TANAP və s. kimi layihələrin Ermənistan ərazisindən keçməməsi bu ölkənin hər il yüz milyonlarla ölçülən gəlirdən məhrum olması deməkdir.

**Militarist siyasət yürüdən, yaxın və uzaq perspektivə hesablanan bütün planlarını işğalçılıq marağı üzərində kökləyən, hər 4 nəfərindən biri yoxsulluq içində yaşayan Ermənistan ciddi sosial-iqtisadi, infrastruktur layihələrinin icrasından məhrum olub, strateji əhəmiyyətli müəssisələrini Rusiya və digər ölkələrə satmağa məcbur qalıb. Hazırda Ermənistanın dəmir yolları 100 faiz Rusiyaya məxsusdur. İşğal faktına son qoyulması ilə Ermənistanın Dağlıq Qarabağ və ətraf rayonlarda həyata keçirdiyi qeyri-qanuni məskunlaşma siyasəti puç olub.**

2021-ci ildə ərazilərimizin bərpası və yenidən qurulması tədbirləri üçün 2,2 milyard manat vəsaitin nəzərdə tutulması gələn ilin "Böyük qayıdış" planının reallaşdırılması baxımından mühüm mərhələ olacağını, işğalçılardan təmizlənmiş rayon və şəhərlərin yol-nəqliyyat infrastrukturunun bərpası, elektrik enerjisi, su, rabitə, mavi yanacaq və s. təminatı istiqamətində mühüm layihələrin reallaşdırılacağını deməyə ciddi əsaslar yaradır. Ayrılmış vəsaitin müəyyən qismi, eyni zamanda qeyd olunan ərazilərdə müasir inzibati infrastrukturun yaradılmasına, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulmasına yönəldiləcək.

**İşğaldan azad edilmiş bəzi ərazilərin qısa müddətdə elektrik enerjisi ilə təchiz edilməsi, eyni zamanda "Azərenerji" və "Azərişıq" ASC-yə bölgənin enerji infrastrukturunun bərpası istiqamətində verilən tapşırıqlar qlobal böhran şəraitində ölkəmizin güclü iqtisadi-maliyyə potensialının göstəricisidir. İşğaldan azad edilmiş ərazilərin bol sulu çayları, eyni zamanda Xudafərin, Sərsəng, Suqovuşan və digər su anbarları təkcə su elektrik stansiyaların yaradılmasına, yeni enerji güclərinin alınmasına deyil, eyni zamanda suvarma infrastrukturunun bərpasına imkan yaradır.**

Azərbaycanın mədəni paytaxtı elan olunmuş Şuşada "Xarı bülbül" musiqi festivalının Azərbaycanda yaşayan bütün millətlərin nümayədələrinin iştirakı ilə keçirilməsi ölkə ictimaiyyəti tərəfindən sevinclə qarşılanmışdır.

Ermənistan ərazisindən keçərək Azərbaycanla Naxçıvanı birləşdirəcək yeni avtomobil və dəmir yollarının çəkilişi daha sərfəli, alternativ nəqliyyat-kommunikasiya marşrutu yaratmaqla, təkcə respublikamızın deyil, ümumən region dövlətlərinin (Türkiyə, Rusiya, Ermənistan, habelə Orta Asiya və Şərq ölkələri) geoiqtisadi maraqlarına uyğundur. Yeni nəqliyyat-kommunikasiya xətləri nəticəsində Azərbaycan Naxçıvan MR-ə və Türkiyənin şərq hissəsinə daha əlverişli çıxış əldə edəcək. Bu yollar eyni zamanda Rusiya Federasiyasının Türkiyəyə Gürcüstandan kənar yeni avtomobil və dəmir yolu marşrutu əldə etməsinə imkan yaradacaq.

**Azərbaycan dövlətinin son 25 ildə apardığı sosial siyasətin prioritet istiqamətlərindən birini ölkəmizin Silahlı Qüvvələrinin şəxsi heyətinin, eləcə də şəhid ailələri və Qarabağ müharibəsi iştirakçılarının sosial müdafiəsinin, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların cəmiyyətdə layiqli statusunun təmini məsələləri təşkil edib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ötən 17 ildə ölkədə reallaşdırılan hərbi vətənpərvərlik təbliğatı və sosial müdafiə tədbirləri cəmiyyətdə orduya və hərbi qulluqçulara yüksək etimad və rəğbətin təmin olunmasına, hərbçilərin Vətən və xalq qarşısındakı əvəzsiz xidmətlərinin adekvat dəyərləndirilməsinə hesablanıb.**

Heydər Əliyev Fondunun, şəxsən Fondun prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqət və qayğısı ilə ötən 15 ildə veteran hərbçi və şəhid ailələri üçün Bakının rayonlarında və regionlarda çoxsaylı fərdi ev və yaşayış binaları inşa olunub, onlara müxtəlif sosial yardımlar edilib. Prezident İlham Əliyev xalqa çoxsaylı müraciətləri və xarici KİV-ə müsahibələrində Azərbaycan Ordusunun yüksək döyüş ruhunu, peşəkarlıq səviyyəsini, hərbçilərimizin yüksək şücaət və rəşadətini xüsusi vurğulayıb, şəhidlərin xatirəsini ehtiramla yad edərək onların qəhrəmanlıqlarının heç zaman unudulmayacağını bəyan edib.

S. Möhbalıyev bildirib ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) da Prezident cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, bu növ sosial təşəbbüslərə qoşularaq bütün tədbirlərdə yaxından iştirak edir.

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ictimai nəzarətin həyata keçirilməsində, vətəndaş müraciətlərinin təkliflərinin araşdırılmasında, ictimaiyyətin həssas təbəqəsi hesab edilən şəxslərə müxtəlif aspektlərdən dəstək göstərməsində Heydər Əliyev Fondunun sosial layihələrində iştirak etmək barədə qərar qəbul edib.**

Prezident İ.Əliyev varislik ənənələrinə sadiq qalmaqla Azərbaycanın müstəqil ölkə kimi möhkəmlənməsinə və inkişafına, demokratik, hüquqi dövlət quruculuğuna çalışır. Azərbaycan beynəlxalq münasibətlər sistemində öz layiqli yeri olan, rəyinə hörmətlə yanaşılan ölkə kimi böyük nüfuz qazanmışdır. Təsadüfi deyil ki, cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunması, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılması isə bu siyasətin əsas qayəsini təşkil edir. Ümumilikdə həyata keçirilən siyasət Azərbaycanın bölgədə tam müstəqil respublika kimi mövcudluğunun əbədi təminatıdır.

**Müstəqil Azərbaycanın müstəqil həmkarlar ittifaqı qurumu olaraq, biz işçilərin sosial-iqtisadi hüquqlarının qorunması sahəsində bütün imkanlarımızı səfərbər etməklə yanaşı, möhtərəm Prezidentimizin ölkənin iqtisadi və siyasi inkişafını təmin edən qətiyyətli addımlarını dəstəkləyir və bu sahədə üzərimizə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinə çalışırıq.**

Hesab edirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində ölkəmiz daha da sürətli inkişafa nail olacaq, dövlətçiliyimizin qorunmasına etibarlı təminat yaradılacaqdır. Çünki Azərbaycan cəmiyyəti H.Əliyevin zəngin dövlətçilik irsini ölkənin iqtisadi maraqlarının və siyasi sisteminin sabitliyinin təmin edilməsinə yönələn təkmil siyasi konsepsiya kimi qəbul edir.

İcazə verin, bu böyük bayram - Respublika Günü münasibətilə bütün Azərbaycan xalqını, o cümlədən, hörmətli həmkarlar, sizi ürəkdən təbrik edim, hamıya firavan həyat və xoş gələcək arzulayım.

**Daha sonra tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərov Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdə yeri və rolundan, əhəmiyyətindən, idarəçilikdə demokratik dəyərlərin bərqərar olmasından, dövlət quruculuğu istiqamətində görülən işlərdən danışıblar.**

# Cəmi 23 ay fəaliyyət göstərsə də, böyük uğurlara imza atıb

**Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Azərbaycan Xalq Cümhuriyyətinin tarixi şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Kamran İsmayılov qəzetimizə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması, o dövrün siyasi reallığı, müstəqilliyimizə qarşı olan təhdidlər barəsində müsahibə verib.**



K.İsmayılıov bildirib ki, 1918-1920-ci illər Azərbaycan xalqının həyatında mühüm əhəmiyyət kəsb edən bir dövrdür. Azərbaycan məhz bu dövrdə ilk dəfə olaraq dövlət müstəqilliyini qazanaraq dünya birliyində layiqli yer tutmuşdur. 1918-ci ildə AXC-nin yaranması iki mühüm amillə əlaqədardır. Cümhuriyyətin təşəkkül tapması həmin dövrdə dünyada və regionda cərəyan edən proseslərin məntiqi nəticəsi olmuşdur. Birinci Dünya müharibəsinin nəticəsi əsasında imperiyalar dağılmış, o cümlədən Rusiya imperiyası süqut etmiş, onun xarabalıqları üzərində bir sıra müstəqil dövlətlər yaranmışdır. Bu dövlətlər arasında Azərbaycan Xalq Cümhuriyyətinin adı hökmən çəkilməlidir. Bu baxımdan cümhuriyyətin yaranması regionda baş verən ictimai-siyasi hadisələrin inkişafı nəticəsində yaranmış şəraitin məhsuludur. İlk növbədə onu vurğulamalıyıq ki, 1918-ci ildə müstəqil dövlətin cümhuriyyət şəklində meydana gəlməsi bütövlükdə 19-cu əsrin ikinci yarısından başlayaraq 1917-ci ilə qədər Azərbaycanda vüsət almış milli-demokratik hərəkatın məntiqi nəticəsi idi.

Bu həm də müstəqil dövlətimizin yaranması ilə bağlı ermənilərin hər yerdə apardığı əsassız təbliğata qarşı tutarlı bir cavabdır.

**1918-ci ildə AXC yaranan ərəfədə Cənubi Qafqazda çox gərgin vəziyyət hökm sürürdü. Bu gərginliyin əsas səbəblərindən biri burada erməni millətçi dairələrinin azərbaycanlı-türk müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımı idi. Bu soyqırımı hadisələri 1917-ci ilin sonlarından başlayaraq vüsət almışdı. Bunun da əsas səbəbi həmin dövrdə Rusiya imperiyasının süquta uğraması ilə əlaqədar olaraq onun bütün ərazisində, xüsusən də ucqarlarda xaotik vəziyyətin yaranması idi. Belə bir vəziyyətdən istifadə edən ermənilər böyük Ermənistan adlı sərsəm ideyasını həyata keçirməyə başladılar. Bu ideyanın həyata keçirilməsində onların qarşısında əsas maneə Azərbaycan türkləri idi. Məhz bu dövrlərdə erməni silahlı dəstələri Azərbaycanda yaşayan, dini, milli mənsubiyyətindən asılı olmayaq bütün xalqlara kütləvi divan tutmuşdu. Soyqırımı təkcə Bakı quberniyasında deyil, Zəngəzurda, Qarabağda, Naxçıvanda, İrəvan quberniyasında törədilmişdi.**

Əgər 1918-ci ildə AXC yaranmasa idi, həmin ilin iyununda türk qoşunları Azərbaycana daxil olmasa idi, Azərbaycan xalqının gələcək taleyi və tarixi çox böyük bir sual altına düşərdi.

Tarixçi alim deyib ki, ermənilər Qarabağ, Zəngəzur, Naxçıvan bölgələrində soyqırımı törədir, beynəlxalq müstəvidə böyük dövlətlərə, Antanta Ali Şurasına müraciət edərək böyük Ermənistan dövlətinin yaradılması üçün özlərinə sadiq müttəfiqlər axtarırdılar. Ənənəvi olaraq özlərinin məzlum obrazından istifadə edərək göstərməyə çalışırdılar ki, onlar bu ərazilərdə yeganə sivil, mədəni xristian xalqıdır. Və hər tərəfdən vəhşi müsəlman xalqları ilə əhatə olunmuşdur. Buna görə də Avropa dövlətləri hökmən ermənilərə dəstək verməlidir. Əslində bu təbliğatın da müəyyən təsiri olmuşdur, Avropanın bir sıra dövlətlərində erməniləri dəstəkləyən ictimai qurumlar yaradılmışdır. Məhz belə bir dövrdə AXC-nin üzvləri çətin, tarixi missiyanı üzərlərinə götürərək dünya birliyinə Azərbaycan xalqının varlığını təsdiq etmək, onun müstəqil dövlətə malik olmaq hüququnun tanınması istiqamətində əzmli iş aparmışdılar. Və uzun müzakirələrdən sonra Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyəti buna nail olmuşdu. 1920-ci ilin yanvarında AXC-nin müstəqilliyi Antantanın Ali Şurası tərəfindən tanınmışdır.

Azərbaycan xalqı müstəqillik qazanmaqla milli dövlətçiliyin qorunması istiqamətində ciddi uğurlara imza atmışdı. Və ən əsası müsəlman şərqində ilk demokratik dövlət quruculuğuna başlamışdı.

**Cümhuriyyətin müstəqilliyi dövründə ona qarşı daxili və xarici təhdidlər daim olmuşdur. Azərbaycan dövləti qonşuları ilə sülh, əmin-amanlıq şəraitində yaşamaq istəməsinə baxmayaraq, ona qarşı olan münasibət tamam fərqli idi. Bu mənada Ermənistanı misal göstərmək olar. Vaxtilə İrəvan quberniyası onlara güzəşt olaraq dövlət qurmaları üçün verilsə də, ermənilər bunu düzgün qiymətləndirmədilər. Və bu, gələcəkdə bir çox fəsalara yol açdı.**

Müstəqil Azərbaycan dövlətinin ərazisində yaşayan ermənilər iğtişaşlar törədir, yerli hakimiyyətə tabe olmaq istəmirdilər. Bu mənada Naxçıvanda, Zəngəzurda, Qarabağda tez-tez dinc əhaliyə qarşı hücumlar təşkil olunurdu. Lakin milli hökumətin tam qətiyyəti sayəsində Qarabağda yaşayan ermənilər müstəqilliyimizi tanımağa məcbur oldular. Bu,müstəqil dövlətimizin ən böyük uğurlarından biri idi. Zəngəzurda da milli hökumət dövlət quruculuğu istiqamətində işlərə başlasa da, buna tam nail ola bilmədi. Təəssüf ki, buna zaman çatmadı. 1920-ci ilin aprelində Azərbaycana ordu yeridilməsi, xarici müdaxilə nəticəsində müstəqil dövlətimiz süquta uğradı.

K.İsmayılıov bildirib ki, AXC gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, böyük uğurlara imza atıb. Cümhuriyyət demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxıb, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynayıb. AXC az yaşasa da, xalqımızda azadlıq və müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Cümhuriyyətin qısa mövcudluğu müddətində həyata keçirilmiş tədbirlər müstəqil dövlətçiliyin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Demokratik hüquq və azadlıqların bərqərar olması, bütün vətəndaşlara bərabər hüquqların tanınması, qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, milli silahlı qüvvələrin, təhlükəsizlik orqanlarının yaradılması və digər məsələlərin müsbət həllini tapması AXC hökumətinin həyata keçirdiyi strateji kursun miqyası və mahiyyəti haqqında aydın təsəvvür yaradır.

**Müstəqilliyini yenidən qazanmış Azərbaycan Respublikası AXC-nin hüquqi varisi olmaqla həm də onun dəyərlərinə və ənənələrinə sadiqliyini bəyan etdi. Cümhuriyyətin atributlarını bərpa edən müasir Azərbaycan Respublikası ölkədə hüquqi və demokratik dövlət quruculuğunu həyata keçirərkən həm də milli tarixi dəyərlərə, o cümlədən cümhuriyyətin modern dövlətçilik prinsiplərinə söykənir. Bu həm də o deməkdir ki, bu gün bizim AXC-nin sahib olduğu ərazilərə, sərhədlərə sahib olmağa həm də mənəvi, siyasi, tarixi haqqımız var.**

**Müsahibəni apardı:
Azər MUSTAFAYEV**

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə

**Hörmətli Səttar müəllim,**

**"Günəşli" İxtisaslaşdırılmış Nevroloji Sanatoriyasının baş həkimi Ələkbər Nəzərov, həkimlər Fatma Quliyeva, Sabir Mehdiyev, tibb bacıları Mehriban Müzəffərova, Kəmalə Kərimova, Elnurə Əliyeva, Solmaz Əliyeva, Şəhla Abdulova və digərləri burada müalicə alan bütün insanlara diqqət və qayğı ilə yanaşırlar. Sanatoriyanın kollektivi üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirir. Otaqlarda olan səliqə-sahman, yeməkxananın təmizliyi, ləziz təamlar, pəhriz yeməkləri, həyətdəki yaşıllıq, bir sözlə, hər şey yüksək səviyyədədir.**

Gördüklərimiz o qədər zövq oxşayır ki, onları sadalamaqla bitməz. Bütün bunlar biz ziyarətçilərə, sağlamlığımıza müsbət təsir göstərir. Hər birimizdə xoş təəssürat oyadır.

Sizə çoxsaylı Nizami Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri və şəxsən öz adımdan təşəkkür edir, Azərbaycanın çiçəklənməsi, daha da inkişaf etməsi üçün görəcəyiniz işlərinizdə uğurlar arzulayırıq.

**Yəhya AĞAYEV,**
**ehtiyatda olan mayor,**
**Nizami Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri**

# AHİK-in "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə keçirdiyi 2020-ci il üzrə Respublika müsabiqəsinin qalibləri

### I. Naxçıvan Muxtar Respublikası Hİ Şurası

**"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətin Təhlükəsizlik Xidməti**

### II. Aviasiya İşçiləri HİRK

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Hava Limanlarının İstismarı Baş İdarəsi

### III. Avtomobil Nəqliyyatı və Yol Təsərrüfat İşçiləri Hİ

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "3 №-li Magistral Yolların İstismarı" MMC**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "Bakı 4 №-li Yol İstismarı" MMC

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "34 №-li Yol İstismarı" MMC

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "39 №-li Yol İstismarı" MMC

### IV. "Baku Stil Kompani" MMC İşçiləri HİB

"Baku Steel Company" MMC

### V. Dəmiryolçuların Müstəqil HİRK

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İnfrastruktur Departamenti 4 nömrəli Gəncə Elektrik Təchizatı Sahəsi**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İnfrastruktur Departamenti 3 nömrəli Bakı İşarəvermə və Rabitə Sahəsi

### VI. Dəniz Nəqliyyatı İşçiləri HİRK

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Dəniz Nəqliyyatı Donanması**

### VII. Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "Təmiz Şəhər" ASC

### VIII. Gömrük İşçiləri HİB

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası

### IX."Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyası

**"Santes Makina Təsisat İmalat Sanaye və Ticarət Limited Şirkəti"**

"Rəmzi-S" MMC
"Anadoluqida" MMC

### X. "İnşaat-İş" Həmkarlar İttifaqı

"İstehsalat Tikinti Mexanizasiya-Şirkəti" MMC

### XI."Azərsu" Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Nəzarət Ölçü Cihazları İdarəsi

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Mərkəzi Laboratoriyası

### XII. "Kənd-Qida-İş" Həmkarlar İttifaqı Federasiyası

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "P-AQRO" MMC-nin Ucar Pambıq Emalı Zavodu**

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "QRANT GARDEN" MMC

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ Suvarma Sistemləri İdarəsi

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin Viləşçay Su Anbarının İstismarı İdarəsi

**"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin Mil-Muğan Meşə Meliorasiya İdarəsi**

"Azərsun Holdinq" Şirkətlər Qrupunun "Lənkəran Konserv Zavodu" ASC

"Azərsun Holdinq" Şirkətlər Qrupunun "Şamaxı Dairy Farm" MMC

"Azərsun Holdinq" Şirkətlər Qrupunun "Azərbaycan Duz İstehsalat Birliyi" QSC

### XIII. Mədəniyyət İşçiləri HİRK

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Cabbar Qaryağdıoğlu adına 9 №-li Uşaq Musiqi Məktəbi

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

### XIV. Neft və Qaz Sənayesi İşçiləri HİRK

**SOCAR "Azəriqaz" İstehsalat Birliyinin Bakı Regional Qazın Satışı İdarəsi**

SOCAR "Azneft" İstehsalat Birliyinin "Dalğıc Xidməti"

SOCAR "Azneft" İstehsalat Birliyinin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsi

### XV. Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK

**Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi**

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "AZƏRKOSMOS" ASC

### XVI. Səhiyyə İşçiləri HİRK

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı Şəhər Baş Səhiyyə İdarəsinin 18 nömrəli birləşmiş şəhər xəstəxanası**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı Şəhər Baş Səhiyyə İdarəsinin 23 nömrəli şəhər poliklinikası

### XVII. Təbii Sərvətlər və Ekologiya İşçiləri HİRK

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi

### XVIII. Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Yasamal Rayon Enerji Təchizatı və Satış İdarəsi

**"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Xırdalan Şəhər Enerji Təchizatı və Satış İdarəsi**

# Heydər Əliyev və gender siyasəti




**Mayın 25-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəzinin təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyevin respublikada apardığı siyasəti və əldə olunan nəticələri" mövzusunda növbəti vebinarı keçirilib. Ümummilli Liderin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş tədbiri giriş sözü ilə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova açdı. Dedi ki, Azərbaycan xalqının taleyüklü hadisələrlə zəngin 30 ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Ümummilli Lider Azərbaycanı zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisinə nail olmuş qüdrətli bir şəxsiyyətdir. Bu gün birmənalı şəkildə, demək olar ki, Azərbaycan xalqının demokratik, hüquqi dövlətdə yaşamaq haqqının real və dayanıqlı əsaslar üzərində gerçəkləşməsi Heydər Əliyevin adı ilə bağlıdır.**

C.Səttarova həmçinin qeyd etdi ki, 1969-cu ildən ölkəmizə rəhbərlik etməyə başlayan ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətində qadınların cəmiyyətdə rolu və iştirakı xüsusi yer tutub. Onun təşəbbüsü və təklifi ilə qadın hüquqlarına dair mühüm addımlar atılmış, mühüm qərarlar qəbul edilmişdir. Azərbaycan 1992-ci ildə BMT-nin "Qadınların siyasi hüquqları", 1995-ci ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə konvensiya"larına qoşulmuşdur".

Cəmilə xanım qeyd etdi ki, Ulu Öndərin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında (12 noyabr 1995-ci il) qadınların kişilərlə eyni hüquqa malik olması təsdiqlənib və bununla demokratik cəmiyyət quruculuğunda qadınların iştirakının hüquqi bazası yaradılmışdır. Ümummilli Liderin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi təsis edildi. Bununla qadınların problemləri ilə birbaşa məşğul olan dövlət qurumu yaradıldı.

**Cəmilə xanım dedi ki, Ümumilli Liderin qadın problemlərinə həssas yanaşma prinsipi Respublikamızın Prezidenti cənab İlham Əliyevin fəaliyyətində də prioritet yer tutur. Dövlətin, hökumətin mötəbər postlarında qadınların yüksək mövqedə yer tutması bu diqqətin bariz nümunəsidir.**

C.Səttarova Azərbaycan həmkarlar ittifaqlarının qadın hüquqlarının qorunması ilə bağlı məsələlərə də toxundu. Dedi ki, AHİK və onun nəzdində fəaliyyət göstərən Gender Bərabərliyi və Qadın Problemləri üzrə Mərkəz tərəfindən hər il qadınların sosial hüquqlarının qorunması və onların normal fəaliyyətinin təmin olunması üçün lazımi tədbirlər həyata keçirilməkdədir.

**Daha sonra tədbir iştirakçılarından sahə Hİ Zaqatala Rayon Komitəsinin sədri Sona Qazıyeva, Sabirabad Rayon Komitəsinin sədri Telman Əzimov, Şəki Rayon Komitəsinin Gender Bərabərliyi və Qadın Problemləri üzrə Komissiyasının sədri Şəmsiyyət Əsgərova, Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Sosial-iqtisadi məsələlər üzrə mütəxəssisi Dilarə Həsənova çıxış etdilər.**

**Əsli ƏHMƏDOVA**

# Emin Əfəndiyev Beynəlxalq Səhiyyə İşçiləri Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezident seçilib




**Mayın 18-də Beynəlxalq Səhiyyə İşçiləri Həmkarlar İttifaqları Konfederasiyasının videokonfrans yolu ilə növbəti X Konqresi keçirildi. Konqresin işində 9 üzv təşkilatın və Ümum Həmkarlar İttifaqları Konfederasiyasının (ÜHİK) nümayəndələri iştirak ediblər.**

Beynəlxalq Səhiyyə İşçiləri Həmkarlar İttifaqları Konfederasiyasının hesabat dövrü üçün əsas fəaliyyəti katib G.A Şerbakov tərəfindən təqdim edildi.

Məruzədə səhiyyə işçiləri sahə həmkarlar ittifaqlarının səhiyyə işçilərinin sosial-iqtisadi hüquqlarının və mənafelərinin qorunmasında, beynəlxalq həmkarlar ittifaqı hərəkatının gücləndirilməsində və Konfederasiya həmkarlar ittifaqlarının birgə fəaliyyətində sıx əməkdaşlığının böyük əhəmiyyəti vurğulandı. Konfederasiya qarşıdakı hesabat dövrü üçün pandemiya ilə əlaqəli prioritet sahələri müəyyənləşdirdi.

Konqresdə Beynəlxalq Konfederasiyanın Nizamnaməsinə, Təftiş Komissiyası haqqında Əsasnaməyə dəyişiklik və əlavələr edildi.

**Rusiya Federasiyası Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri Anatoli Domnikov Beynəlxalq Səhiyyə İşçiləri Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti, Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri Emin Əfəndiyev vitse-prezident seçildilər. Konfederasiyanın Baş katibi Gennadi Alekseyeviç Şerbakov seçildi.**

# "Baku İnternational Tobacco" MMC-nin Həmkarlar İttifaqı Komitəsi yaranıb



**"Kənd-Qida-İş" Hİ Federasiyası özəl sektorda yeni həmkarlar ittifaqı təşkilatlarının yaradılmasında hər zaman fəal iştirak edir. Federasiyanın təşkilatçılığı ilə "Baku İnternational Tobacco" MMC-nin Həmkarlar İttifaqı Komitəsi yaranıb.**

Mayın 20-də keçirilən təsis konfransında "Kənd-Qida-İş" Hİ Federasiyasının sədri Tofiq Quliyev çıxış edərək həmkarlar ittifaqı təşkilatının yaranmasının əhəmiyyətindən və zərurətindən danışıb. T. Quliyev bütün fəaliyyət sahələri üzrə həmkarlar ittifaqlarının yaradılmasının vacibliyini, həmkarlar ittifaqlarının istehsal və qeyri-istehsal sahələrində çalışan işçilərin, təqaüdçülərin və təhsil alan şəxslərin əmək, sosial hüquqlarını və mənafelərini müdafiə edən müstəqil ictimai təşkilat olduğunu qeyd edib. O, həmkarlar ittifaqı komitəsinin fəaliyyətinə hərtərəfli dəstək verməyə çağırıb və bu əlamətdar hadisə münasibətilə onları təbrik edib.

**Sonda "Baku İnternational Tobacco" MMC-nin yeni yaradılan Həmkarlar İttifaqı Komitəsinin təsis konfransının nümayəndələri səsvermə yolu ilə komitənin üzvlərini seçiblər. Vəsilə Bərxudarova "Baku İnternational Tobacco" MMC-nin Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib.**

# Şəhidlik zirvəsinin fatehləri

## Şəhid Babək Süleyman oğlu Mahmudlu



**Babək Süleyman oğlu Mahmudlu 1995-ci il noyabrın 27-də Biləsuvar şəhərində anadan olmuşdur. 2011-ci ildə Biləsuvar şəhəri Nizami adına 1 saylı tam orta məktəbin 9-cu sinfini başa vuraraq Sumqayıt Texniki Kollecinə daxil olmuşdur. Kolleci bitirdikdən sonra hərbi xidmətə yollanmışdır.**

Naxçıvan Muxtar Respublikasının Xüsusi Təyinatlı Qüvvələrində xidmət üçün imtahanlardan uğurla keçərək Müddətdən Artıq Xidmət Edən (MAXE) hərbi qulluqçu kimi Vətənə xidmətini davam etdirmişdir.

Manqa komandiri M.Mahmudlu "İstiqlal" snayper kursunu da müvəffəqiyyətlə başa vuraraq Naxçıvanda Türkiyə və Azərbaycanın keçirdiyi birgə hərbi təlimlərdə snayper atəşi yarışlarında birincilik əldə etmişdir.

**Sentyabrın 27-də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlayan Vətən müharibəsində Babəkin Cəbrayıldan başlayan döyüş yolu Zəngilan və Qubadlıyadək uzanmışdır. Cəsur döyüşçü çətin döyüş əməliyyatlarının iştirakçısı olmaqla, 89 düşmən əsgərini "İstiqlal"ı ilə məhv etmişdir. O, Şuşa uğrunda gedən döyüşlərdə Şəhidlik mərtəbəsinə ucalmışdır.**

Noyabrın 1-də doğulduğu Biləsuvar şəhərində torpağa tapşırılmışdır.

**Prezident İlham Əliyevin Sərəncamına əsasən, Babək Süleyman oğlu Mahmudlu ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.**

## Şəhid Sahil Rasim oğlu Məmmədov



**Sahil Rasim oğlu Məmmədov 1995-ci il iyunun 7-də Naxçıvan Muxtar Respublikasının Qaraçuq qəsəbəsində anadan olub. 2001-2005-ci illərdə Qaraçuq kənd orta məktəbində, 2005-2009-cu illərdə isə Heydər Əliyev adına tam orta məktəbdə oxuyub. 2009-2012-ci illərdə Heydər Əliyev adına Hərbi Liseyə, 2012-ci ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olaraq ali hərbi təhsil alıb. 2016-cı ildə həmin məktəbi "motoatıcı" ixtisası üzrə bitirib. Sahil 2016-cı il iyulun 4-də Müdafiə nazirinin müvafiq əmrinə əsasən, xidmətini davam etdirmək üçün "N" saylı hərbi birləşmənin snayper bölüyündə bölük komandirinin müavini, 2019-cu ilin mart ayında "N" saylı hərbi hissədə həmlə taborunda taqım komandiri vəzifəsində xidmət edib.**

27 sentyabrda başlayan II Qarabağ müharibəsində iştirak edən Sahil Murov dağının alınmasında şücaət göstərmişdir. Sentyabrın 28-də Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

77 gündən sonra nəşi tapılan şəhidimiz dekabrın 7-də dəfn edilmişdir.

R.Məmmədov eyni zamanda Tovuz döyüşlərində də vuruşaraq xüsusi qəhrəmanlıq göstərmişdir.

**Sahil Rasim oğlu Məmmədov "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalları, ölümündən sonra isə "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.**

## Şəhid Rahim Qalib oğlu Mikayılov



**Rahim Qalib oğlu Mikayılov 1990-cı il sentyabrın 3-də Quba rayonunun İkinci Nügədi kəndində anadan olub. 2008-ci ildə İkinci Nügədi kənd 3 saylı tam orta məktəbin məzunu olub. Daha sonra Gəncə şəhərində yerləşən Azərbaycan Texnologiya Universitetində ali təhsil alıb. Ali təhsilini başa vurduqdan sonra həyatını hərbi sahəyə həsr edən Rahim qüsursuz xidməti ilə baş leytenant ali hərbi rütbəsinə yüksəlmişdir.**

İkinci Qarabağ müharibəsinin ilk günlərində Murov istiqamətində gedən şiddətli döyüşlərdə böyük şücaət göstərmiş və Murov zirvəsinin azad olunmasında iştirak etmişdir. Elə 27 sentyabrda da Şəhidlik zirvəsinə yüksələn hərbçimizin nəşi 117 gündən sonra tapılaraq Quba rayonuna gətirilmiş və doğulduğu İkinci Nügədi kəndində torpağa tapşırılmışdır.

**Rahim Qalib oğlu Mikayılov Prezident İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.**

## Şəhidliyi əsirlikdən uca tuturdu

**"Bir canımızmı var? Allah nə yazıbsa, o da olacaq. Şərəfli yolu, doğru yolu seçin ki, bu üçündən biri gəlsin başımıza: ya qalib olaq, ya qazi olaq, ya şəhid olaq. Başqa bir seçim heç bir Azərbaycan əsgərində ola bilməz". Bu sözləri Vətən müharibəsindəki qələbəmizdə payı olan əsas şəxslərdən biri, bizə qələbəni yaşatsa da, özü şəhid olan polkovnik Babək Səmidli əsgərləri qarşısında deyib.**

Babək Mətləb oğlu Səmidli 1974-cü il yanvarın 7-də Göyçay rayonunda dünyaya gəlib.

1993-cü ildə Türkiyə Quru Qoşunları Məktəbinə daxil olan Babək bir müddət Türkiyə Silahlı Qüvvələrində təcrübə keçib. 25 yaşında Azərbaycan Ordusunda taqım komandiri kimi xidmətə başlayıb. 2000-2003-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində taqım və bölük komandiri olub. Tovuzda tabor komandirinin müavini, ardınca isə hərbi polisin xüsusi təyinatlı taborunda komandir müavini kimi xidmət edib. Xidmətini müxtəlif hərbi hissələrdə davam etdirən B.Səmidli 2015-ci ildə I Ordu Korpusunda əməliyyat bölmə rəisi, 2 il sonra isə I Ordu Korpusunda korpus komandirinin müavini təyin olunub.

**O həmçinin 2016-cı il Aprel döyüşlərində də iştirak edib. Talış istiqamətində gedən şiddətli döyüşlər zamanı düşmən onun olduğu avtomobili atəşə tutur. Düşmənin hədəfində olduğu üçün hətta ona tez-tez avtomobilini dəyişməsini deyirlər. Bu döyüşlərdə dizindən yaralansa da, sona kimi iştirak edir. O, Aprel döyüşlərini Qarabağ müharibəsinin sınma nöqtəsi adlandırırdı.**



Vətən müharibəsinə döyüşlərə ön cəbhədə başlayıb. Talış kəndinin və Suqovuşanın azad edilməsində müstəsna xidmətləri olub. Hətta o, 39-a yaxın yaralını döyüş bögəsindən çıxararaq xilas edib.

**Qardaşı Müşfiq deyir:** "Mənə dedilər qardaşın Babək qaça-qaça gəlir. Gəlib mənə çatanda dedi ki, səni yola salmağa gəlməmişəm. Deməyə gəlmişəm ki, Allah eləməmiş, mühasirəyə düşsən, çıxış yolu olmasa, əsir alınmaqdansa, özünü güllələməyi seç. ".

Babəkin həyatının son günü... Noyabrın 23-də düşmənin nəzarəti altında qalan şəhidlərimizin nəşini götürməyə getdiyi gün Babək minaya düşür. Əbədi olaraq müqəddəs şəhidlərimizin mərtəbəsinə ucalır.

O, doğulduğu Göyçayda böyük bir izdihamla dəfn edilib.

**Babək Mətləb oğlu Səmidli "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələri Veteranı" və "Hərbi xidmətlərə görə" medalları, ölümündən sonra isə "Zəfər" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

## "Çoxdan gözlədiyimiz gün gəlib çatdı"

**İlham Tahir oğlu Rəşidov 1983-cü il martın 1-də Türkmənistanın Marı vilayətində anadan olub. Sonradan ailəsi Azərbaycana qayıdıb. İlham orta təhsilini Xudat şəhərində alıb.**



2001-ci ildə hərbi xidməti başa vurduqdan sonra Gizir Hazırlıq Məktəbinə daxil olub. Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) xüsusi kursunu uğurla bitirərək kəşfiyyatçı (mütəxəssis-istehkamçı) kimi fəaliyyətə başlayıb. XTQ-da baş gizir rütbəsində bir çox xüsusi və məxfi əməliyyatlarda iştirak edib.

**İyirmi ilə yaxın Vətənə xidmət edən baş gizir xarici ölkələrdə təlimlərə cəlb olunub, peşəkarlığını artırdıqca özü də kəşfiyyatçılar yetişdirməyə başlayıb. Dörd dildə danışmağı bacaran İlham 2016-cı ildə Aprel döyüşlərində də fəal iştirak edib. Xidməti ərzində əldə etdiyi nailiyyətlərə görə medallar və Fəxri fərmanlarla təltif olunub.**

İlham qəhrəmanlığı ilə hər zaman seçilməyi bacarıb. Bir dəfə hərbçi yoldaşı bilmədən ayağını torpaqda basdırılan mina üzərinə qoyur. Bu zaman İlham ayağını həmin minanın üzərinə basaraq partlayıcını zərərsizləşdirə bilir.

**Vətən müharibəsi başlayan gündən xüsusi əhəmiyyətli tapşırıqların icrasına cəlb olunan İ.Rəşidov Murovdağ silsiləsindəki Camışdağı zirvəsi, Sərsəng su anbarı istiqamətindəki vacib yüksəkliklərin düşməndən azad olunmasında fəal iştirak edib. Onun və döyüş yoldaşlarının qəhrəmanlığı nəticəsində 12 saatlıq əməliyyat ərzində Murovdağ ermənilərdən azad edilib.**

Döyüşlərin birində yaralı yoldaşlarını atəş altından çıxararkən minaatan mərmisi yaxınlığında partlayıb. Ağır xəsarətlər alsa da, İlham döyüş tapşırığını axıradək yerinə yetirərək, yaralı döyüş yoldaşlarını kömək üçün gələn avtomobilə çatdırıb. Amma, təəssüf ki, İlhamın özünün yaraları çox ağır olduğundan avtomobil dağlıq ərazidə və çətin şəraitdə ən yaxın tibb məntəqəsinə çatanadək şəhid olub.

Xudat şəhərində dəfn olunub.

**Qardaşı Tərlan: "İlhamla şəhid olmamışdan bir həftə əvvəl görüşdük. Ağır əməliyyata gedəcəyini bildirib ailəsini mənə tapşırdı. Dedi ki, "dövlətimizin dəstəyindən arxayınam, amma sən də bir qardaş kimi ailəmin yanında olmalısan. Ola bilər, qayıtmayım". Sonra cəbhədən telefon vasitəsilə mənə mesaj göndərdi. Deyirdi ki, çoxdan gözlədiyimiz gün gəlib çatdı. Bir azdan telefonumu söndürüb təhvil verəcəyəm. Əməliyyatların çoxu məxfi olduğundan bizə heç nə demirdi. Aprel döyüşlərində olduğunu da sonradan öyrənmişik. Bu döyüşlərdə də qəhrəmanlıqla vuruşub. Mən qardaşımla fəxr edirəm".**

**Həyat yoldaşı Samirə Rəşidova** İlhamın ən çətin döyüş əməliyyatlarında iştirak etdiyini dedi. Bildirdi ki, o həm həyat yoldaşı, həm də ata kimi çox yaxşı insan idi: "İlhamın Şəhidlik zirvəsinə ucalması həyatımda böyük itki oldu. Həmişə onunla fəxr edəcəyəm. Müharibədən əvvəl evə gəldi, mənimlə, uşaqları ilə görüşüb getdi. Son mesajında isə yazdı ki, təlimə gedirəm, uşaqlardan və özündən muğayat ol".

**İlham Tahir oğlu Rəşidov "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Hərbi xidmətlərə görə" medalı, ölümündən sonra isə "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.**

## "Vüqar yüksəkliklərə qalxdı, indi o, sülh göyərçinidir"

**Vüqar İnşallah oğlu Cəfərov 1991-ci il martın 23-də Bakıda anadan olub. Nizami rayon 70 saylı məktəb-liseydə təhsil alıb. 2010-cu ildə Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasında həqiqi hərbi xidmət keçib. Tərxis olunduqdan sonra Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarında "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində baş pulemyotçu vəzifəsində xidmət edib.**

DİN-in Daxili Qoşunlarının baş çavuşu olan Vüqar 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə qatılıb. Cəbrayılın azadlığı uğrunda döyüşlərdə savaşıb. Sinəsindən iki güllə yarası alsa da, döyüş yoldaşlarını qorumaq üçün pulemyotu sinəsinə sıxaraq yaralı halda 20-dən çox düşməni məhv edib. Onların arasında Xocalı qatillərindən biri - "dəhşət" ləqəbli erməni polkovniki Artur Qalstyan da var idi.

**Vüqar oktyabrın 5-də anasının doğulduğu Cəbrayıl rayonunun Mərzə kəndini işğaldan azad edərkən qəhrəmancasına şəhid olub. Bu, onun uşaqlıq arzusu idi və Mərzə kəndini azad edəcəyini anasına söz vermişdi.**

**Anası Səmayə Cəfərova** oğlundan fəxrlə danışır: "Vüqar yüksəkliklərə qalxdı, indi o, sülh göyərçinidir. Mənim balam əmin-amanlıq gətirdi gələcək nəsillərə".

**Qardaşı Həci Cəfərov** deyir ki, getdiyim hər yerdə qardaşım başımın ucalığıdır: "Sadəcə, yarımçıq qalan arzular, diləklər, istəklərə görə heyifslənirik...".

Vüqar II Fəxri xiyabanda dəfn edilir.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Vüqar İnşallah oğlu Cəfərov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.**



**Səhifəni hazırladı: Aliyə SƏMƏDOVA**



# ƏDV-nin tətbiqi vergidən yayınmanı məhdudlaşdırdı



**2020-ci ilin may ayından etibarən alınmış mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) qaytarılması üçün istehlakçıların müraciətlərinin qeydiyyata alındığı informasiya sistemi olan xüsusi portalda (www.edvgerial.az) 1 milyon 340 mindən çox istifadəçi qeydə alınıb.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib ki, "ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan 2021-ci ilin 1-ci rübünün sonunadək portalda qeydiyyatdan keçmiş istifadəçilər tərəfindən ümumilikdə 60.192.462 manat ƏDV məbləği geri qaytarılıb. Həmçinin bu müddət ərzində çek əlavə edən müştərilərin sayında artım dinamikası müşahidə edilib. Bu da "ƏDV geri al" layihəsinə olan marağın sürətlə artmasını göstərir.

ƏDV-nin geri qaytarılması mexanizmi hazırlanarkən əsas məqsəd nədən ibarət idi? Layihənin icraatı istənilən nəticəni verirmi? Mexanizmin daha da təkmilləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün hansı tədbirlər görülməlidir? Bu prosesin tətbiqinin kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə təsiri necə olacaq?

**Bu və ya digər suallarımıza iqtisadçı Rəşad Həsənov aydınlıq gətirdi. Dedi ki, ƏDV-nin geri qaytarılması prosesində iqtisadiyyatın müəyyən dərəcədə leqallaşdırılması istiqamətində istehlakçıların iştirakının təmin olunması əsas şərt idi. Çünki çek və qəbzlər tələb edildikdə sahibkar hesabatdan yayına, o cümlədən vergiyə cəlb olunmalı dövriyyəni gizlədə bilmir. Dünya təcrübəsindən yola çıxaraq deyə bilərəm ki, bu mexanizm 80-90-cı illərdə Avropa ölkələrində, 2000-ci ildən isə Türkiyədə tətbiq olunur. Hesab edirəm ki, bizdə son innovasiyaların,rəqəmsal texnologiyanın imkanları ilə bu, daha rahat şəkildə həyata keçirilir. Amma məqsəd digər ölkələrlə eynidir, yəni istehlakçıların prosesdə iştirakına nail olmaq və onların təsiri ilə sahibkarı məcburən öz dövriyyəsini leqallaşdırmasına səy göstərtməkdir.**

Həmsöhbətim vurğuladı ki, nəticənin tam ürəkaçan olduğunu demək çətindir: "Düzdür, bu tətbiqdən istifadə edən insanların sayında, pandemiya dövrü olsa belə, müəyyən artımlar var. Amma bu proses nisbətən dar çərçivəni əhatə edir. Məsələn, iqtisadiyyatın inkişafında mühüm rol oynayan tikinti materialları kimi seqmentlər bura aid deyil. ƏDV-nin qaytarılmasının bu sahələr üzrə də genişləndirilməsi daha məqsədəuyğun olardı. Burada əsas nöqsanlardan biri faizlərin aşağı olmasıdır. Düşünürəm ki,vətəndaşa nağdsız ödənişlər zamanı 15 faiz deyil 35 faiz, nağd ödənişlər zamanı isə 10 faiz deyil 25 faiz ƏDV təklif olunsun. Bu zaman insanlar alış-veriş zamanı çeklərin alınmasında daha maraqlı olacaqlar, eyni zamanda leqallaşma daha sürətlə gedəcək. Pandemiyanın əhalinin gəlirlərinə ciddi şəkildə mənfi təsir göstərdiyini nəzərə alsaq, ailə büdcəsinin daha qənaətlə və səmərəli istifadəsi üçün də faizlərin artırılmasına ehtiyac var. Belə halda dövlət də ciddi itkiyə getməyəcək, çünki tətbiqdən istifadə edən insanların say çoxluğu dövriyyənin leqallaşması prosesini artıracaq. Bu da vergi bazasının genişlənməsinə, dolayısı ilə dövlət büdcəsinin lehinə istiqamətlənəcək.

**İqtisadçının sözlərinə görə, başqa bir narahat edən məqam ondan ibarətdir ki, bu sistem istehlakçıları müəyyən qədər iri sahibkarlıq subyektlərinə yönləndirir və beləliklə də, kiçik sahibkarlığa zərbə vurulur: "İnsanlar iri supermarketlərə, iaşə müəssisələrinə təşviq olunur, belə olduğu təqdirdə də digər mikro sahibkarlıq subyektlərinin dövriyyəsi azalır. Belə vəziyyətin yaranması üçün mövqe ortaya qoyulmalıdır. ƏDV ödəyicisi kimi fəaliyyət göstərməyən müəssisələrdə də dövriyyədə "cash-back"in verilməsi ilə bağlı müəyyən mexanizm tətbiq edilə bilər. Əks halda çox sürətlə təbəqələşmə gedəcək. Kiçik və orta sahibkarlıq obyektləri, iaşə və pərakəndə ticarət sahəsində fəaliyyət göstərən müəssisələr məhv olacaqlar. Eyni zamanda bu özünü daha sərt, qabarıq şəkildə bölgələrdə göstərəcək. Bu, çox vacib məsələdir. Hansı formada olur olsun, kiçik və orta sahibkarlıq subyektləri də bu mexanizmdən kənarda qalmamalıdır. Onların da dövriyyəsi leqallaşdırılmalıdır. Məsələn, iaşə müəssisələrinin ƏDV ödəyicisi olmadan 8 faizlik sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyət göstərmək seçimi vardır. Vergi Məcəlləsi onlara bu hüququ verib. Hətta dövriyyəsi 200 min manatı keçsə belə. Lakin bu halda da bir tərəfdən vətəndaşlar "cash-back" qazanma imkanından, digər tərəfdən isə müəssisənin özü ƏDV-nin yaratdığı üstünlüklərdən kənarda qalır. Bu problemləri aradan qaldırmaq üçün sadələşdirilmiş vergi rejimində fəaliyyət göstərən müəssisə tərəfindən verilən qəbz və ya kassa çekində hesablanan verginin cəminin 20-30 faizinin vətəndaşa qaytarılması mexanizminin tətbiq edilməsi, hesab edirəm ki, yaxşı effekt verə bilər. Təbii ki, digər üsullar da fikirləşib tapmaq olar.**

**Əsli TELMANQIZI**



Məlahət İbrahimqızı



Natiq Cəfərli

# Pandemiyanın yaratdığı demoqrafik problemlər

**Hazırda dünyada, eləcə də Azərbaycanda pandemiya səbəbindən toy mərasimlərinin keçirilməməsi yeni qurulan ailələrin sayını azaldıb. Təbii ki, bu da əhalinin say artımına mənfi təsir göstərir. Üstəlik, karantin rejiminin tətbiqi nəticəsində yaranan işsizlik də əksər ailələri övlad sahibi olmaq fikrindən çəkindirir.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvarında 10 812 körpə doğulub, 7 972 nəfər dünyasını dəyişib. Nəticədə təbii artım 2840 nəfər olub. Belə ki, 2020-ci ilin yanvarı ilə müqayisədə təbii artımda kəskin geriləmə qeydə alınıb. Bunun əsas səbəbi ölənlərin sayının artmasıdır. Mütəxəssislər doğulan uşaqların sayının azalmasının səbəbini pandemiya dövründə toyların olmaması ilə əlaqələndirirlər.

**Qeyd edək ki, ötən ilin yanvarında doğulanların sayı 11 279 nəfər, ölənlərin sayı 5177 nəfər, təbii artım 6102 nəfər olub. Müqayisədə bu il ölənlərin sayı 54,1 faiz (2795 nəfər) artıb, doğulanların sayı 5,2 faiz (467 nəfər), təbii artım isə 2,15 dəfə azalıb.**

**Əgər demoqrafik vəziyyət bu cür azalan templə davam edərsə, gələcəkdə nə kimi problemlərə səbəb ola bilər?**

Mövzu ilə əlaqədar Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini, deputat **Məlahət İbrahimqızı** və iqtisadçı-ekspert **Natiq Cəfərli** ilə əlaqə saxladıq.

**Məlahət İbrahimqızı dedi ki, hazırda dünya koronavirus pandemiyası ilə üzüzədir və bütün ölkələr öz əhalisinin, vətəndaşlarının sağlamlığı və təhlükəsizliyi üçün hər cür imkanlardan istifadə edir: "Ölkəmizdə də bu sahədə kompleks tədbirlər planı həyata keçirilir. Deyərdim ki, bu zaman ərzində Azərbaycan ən az itki verən ölkələrdən oldu. Buna baxmayaraq, statistikaya nəzər salsaq, əvvəlki illərlə müqayisədə son bir il ərzində əhali sayında azalmanı görə bilərik. Bu, təkcə pandemiyanın payına düşmür. Məlumdur ki, 44 günlük Vətən müharibəsində 3 minə yaxın şəhidimiz oldu. Təbii ki, bu da demoqrafik proseslərə təsir edən amillərdən biridir.**

Onu da qeyd edim ki, hər il doğulan uşaqların statistikasında yeni evlənənlərin payı 25-30 faiz arasındadır. Tutaq ki, bir il ərzində 150 min uşaq doğulursa, onun 35-40 min nəfəri yeni evlənənlərin payına düşür. Bütün bunlar tarazlığın pozulmasına səbəb olsa da, ancaq düşünmürəm ki, ciddi demoqrafik itkilərə gətirib çıxara bilər.

Mən bir məsələni də vurğulamaq istərdim. Tez-tez insanların toylara olunan qadağalardan narazılıq etdiklərinin şahidi oluruq. Bəli, gənclərin ailə qurması, nəsil artımı vacibdir. Lakin nəzərə almalıyıq ki, qoyulan qadağalar biz vətəndaşların sağlamlığı və təhlükəsizliyi üçündür. Əgər bu problemdən tez bir zamanda qurtulmaq istəyiriksə, o zaman qoyulan tədbirlərə ciddi riayət etməliyik. Əks təqdirdə uzun müddət bu virusla mübarizə aparmalı olacağıq".

**Natiq Cəfərli məsələyə fərqli aspektdən yanaşaraq bildirdi ki, ümumiyyətlə, Azərbaycanda demoqrafik vəziyyət 2015-ci ildən bəri mənfiyə doğru gedirdi, yəni doğuş sayı kifayət qədər azalırdı. Bu, iqtisadi çətinliklərlə, devalvasiyadan sonra gəlirlərin azalması ilə izah olunurdu: "Bu gün isə pandemiya bunun üzərinə gələrək daha da dərinləşdirdi. İnsanlar önünü görə bilmədikləri, gələcəkdə nələrin baş verəcəyini təxmin etmədikləri üçün uşaq dünyaya gətirməyə bir növ çəkinirlər. Bu da gələcəkdə demoqrafik vəziyyətə ciddi dərəcədə mənfi təsir göstərə bilər. Heç də təsadüfi deyil ki, BMT-nin hesabatında da Azərbaycanda əhalinin artım tempinin azalacağı proqnozlaşdırılır. Belə ki, müstəqillikdən sonra, yəni 30 il ərzində Azərbaycanda 3 milyona yaxın əhali artımı qeydə alınıb. Növbəti 30 ildə isə cəmi 1,5-2 milyon artım ehtimalı var. 30 illik tsikllar ilə götürsək, demoqrafik vəziyyətin daha da zəifləyəcəyini proqnozlaşdırmaq heç də çətin deyil".**

**Aliyə SƏMƏDOVA**



# Yay həm də ilanların mövsümüdür

## *İlansancmalardan qorunmaq üçün nə etməliyik?*

**Qarşıdan yay mövsümü gəlir. Bu mövsümdə əsasən kənd rayonlarında ilan, əqrəb sancmaları təhlükəsi yaranır. Belə təhlükə yaranan təqdirdə insan ilk növbədə nə etməlidir?**

**Müxbirimizin bu sualını cavablandıran 1 saylı Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, tibb elmləri doktoru Azər Maksudov dedi ki, hadisə baş verən zaman zərərçəkəni hərəkətsiz vəziyyətdə xəstəxanaya çatdırmaq lazımdır. Çünki hərəkət etdikdə qan dövranı yüksəlir və zəhər çox sürətlə qana sovrulur. İlan sancan yerə yod vurmaq lazımdır ki, infeksiyalaşmış yaraya çevrilməsin. Sonra isə buz qoymaq məsləhətdir. Bağlamaq, çərtmək, su vurmaq, hansısa alətlə yandırmaq, qatıq, sarımsaq çəkmək olmaz. Yaranın özünə müdaxilə etməyi, zəhəri sovurmağı qətiyyən məsləhət görmürük. Xəstəxanada həkimlər ilk növbədə xəstənin həssaslığını yoxlayır. Xəstənin adətən qan təzyiqi düşür, başgicəllənmələr, iltihab, güclü susuzluq hissi, şok, psixoloji pozğunluqlar, ürək ritminin pozulması, tənəffüs çatışmazlığı kimi hallar olur. Xəstənin vəziyyətini nəzarətdə saxlayıb, daha sonra ilan zəhərinin həssaslığını yoxlayırıq və vurulacaq məhlul təyin edilir.**

**- Tibb məntəqələrində, kənd və rayon xəstəxanalarında zəhərə qarşı zərdablar yetərli saydadırmı?**

- Biz bu məsələni ilin əvvəlində müzakirə edib, lazımi orqanlara müraciət etdik. Zərdab məsələsi operativ şəkildə həll olundu. Artıq şəhər, rayon mərkəzi xəstəxanalarına, tibb briqadalarına zərdablar vaxtında çatdırılır. Ola bilər ki, kənd məntəqələrində az olsun. Lakin onlar daim rayon mərkəzi xəstəxanaları ilə əlaqə saxlamalı, zərdablar qurtaran zaman yenilərini istəməlidirlər. Yəni məsuliyyətli olmalıdırlar, gözləməməlidirlər ki, xəstə ağır vəziyyətdə gəlsin, sonra zərdab istəsinlər.

**- Əqrəb, ilansancma hallarını illər üzrə müqayisə etsəniz artım, yoxsa azalma ortaya çıxar?**

- Toksikologiya Mərkəzinə daxil olan məlumata görə, respublika üzrə keçən il 130 nəfəri gürzə ilanı sancıb. Onlardan 17-18-i azyaşlı olub. Əqrəb isə yalnız insan ona toxunduğu an qorxusundan sanca bilər və qəsdən insana hücum etmir. Əqrəb sancması və ölüm hadisəsi baş verməyib. Bir neçə xəstə koma vəziyyətində xəstəxanalara çatdırılıb, onlara da dərhal müdaxilələr edilərək sağaldılıb.

**- Sancmalardan qorunmaq üçün nə məsləhət verərdiniz?**



**- Yay mövsümünün gəlməsi ilə əlaqədar insanlar şəhərin səs-küyündən uzaqlaşıb, meşələrə, çaykənarı istirahət zonalarına üz tuturlar. İlanlar çay kənarlarında, daha çox daşlıq ərazilərdə yuva salırlar. Əsas tövsiyələrimiz bunlardır ki, ilanla rastlaşdıqda dayanın, arxanızı ona çevirmədən yavaşca geriyə çəkilərək, uzaqlaşmağa başlayın. İlanın sizi fərq etməməsi üçün qəfil, kəskin hərəkətlər etməyin. İlanı vurmağa, öldürməyə cəhd etməyin. İlan insandan təhlükə gəldiyini hiss etdikdə ona hücum edir. Ona yaxınlaşmasanız, ilan yoldan çəkiləcək. Meşələrdə sayıqlığınızı itirməyin. Gəzdiyiniz sahələrdə diqqətli olun, rast gəldiyiniz yuva, hündür otluq və aşmış ağaclardan uzaq durun. Yolunuzu açmaq üçün sıx otluqlara qətiyyən əlinizi salmayın, bu məqsədlə əl ağaclarından istifadə edin. Qumsallıqda ayaqyalın gəzməyin. Səyahətə çıxan zaman tibbi yardım çantası düzəldib mütləq özünüz ilə götürün.**

**Gülöyşə MƏMMƏDLİ**

# Vətən müharibəsi qazilərinə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim edilib



**Mayın 26-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qazilərin sosial dəstəklə təminatı işləri çərçivəsində Vətən müharibəsi qazilərindən daha iki nəfərinə kiçik biznes sahələri yaratmaları üçün aktivlər təqdim edilib.**

Müharibə əlilləri Camal Alxasov avtoyuma, Pərvin Rzayev isə dönər istehsalı üzrə kiçik biznes fəaliyyətlərini qurmaları üçün özünüməşğulluq proqramı çərçivəsində lazımi avadanlıqlarla təmin olunublar.

Aktivlər nazirliklə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlıq çərçivəsində verilib.

Camal Alxasov bir qədər əvvəl nazirlik tərəfindən mühərrikli təkərli oturacaqla təmin edilib, həmçinin onun yüksək texnologiyalı protezlə təminatı üçün də işlər aparılır.

**Ümumilikdə postmüharibə dövründə icra olunan sosial dəstək paketi çərçivəsində şəhid ailəsi üzvləri, qazi və yaxınlarından ibarət 6 mindən çox şəxsin məşğulluğuna dəstək göstərilib. Onlardan 4 min 666 şəxs özünüməşğulluq proqramı ilə əhatə olunub, 430 nəfərə münasib işlərə göndəriş verilib, 930 nəfər isə haqqıödənilən ictimai işlərə cəlb edilib.**



# İyunun 10-dan çimərliklərin fəaliyyətinə icazə veriləcək

**Çimərlik mövsümü ilə əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhərinin sahilkənarı ərazilərində yaradılan ictimai çimərliklərdə mövsümə hazırlıq işləri başa çatıb.**

2 il ərzində Abşeron yarımadasının Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində, Səbail rayonunda, "Şıx" çimərlik ərazisində ümumilikdə 6 yerdə fəaliyyət göstərən ictimai çimərliklər şəhər sakinlərinin Leyla Əliyevaya müraciətlərindən sonra paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzlərinə və çimərliklərə alternativ olaraq yaradılıb.

Çimərlik mövsümü ərəfəsində ictimai çimərliklərdə lazımi təmizlik-abadlıq işləri aparılıb, qış ərzində dəniz sahilinə yığılan tullantılar, həmçinin dalğaların sahilə atdığı müxtəlif əşyalar yığışdırılıb, digər təmizlik işləri görülüb. Çimərliklərdəki inventarlar, günlüklər, söhbətgahlar, sanitariya qovşaqları və duşlar mütəmadi olaraq yoxlanılır, qaydaya salınır, cari təmir işləri, bir sıra yerlərin rənglənməsi aparılır.

**Qeyd edək ki, COVID-19 pandemiyasının davam etməsi ilə əlaqədar vətəndaşların sağlamlıqlarının qorunması məqsədilə çimərliklərdə mövcud epidemioloji vəziyyətə uyğun tədbirlər nəzərdə tutulub. Çimərlik ərazilərində maafirləndirici lövhələr, poster və elanlar yenilənir.**

Çimərliklərdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, həmçinin tibb məntəqələri təşkil olunub.

**Xatırladaq ki, çimərliklərə üz tutan sakinlər ötən il olduğu kimi, bu il də cimerlik.az portalına daxil olaraq çimərliklərin siyahısı, doluluq səviyyəsi, infrastruktur və şərait, ünvan və yerləşmə yeri və s. məlumatları əldə edə biləcəklər.**

Lənkəranda Xəzər dənizinin sahilində yerləşən çimərliklərdə keçirilən monitorinqlər başa çatıb. Xəzər dənizi sahili boyu yerləşən 8 məntəqədən götürülən suyun fiziki-kimyəvi və bakterioloji analizləri aparılıb. Analizlərin nəticəsinə görə, çirklənmə səviyyəsi yüksək olub. Məlum olub ki, Lənkəran rayonu ərazisindəki təmizləyici qurğular istismara yararsız olduğundan tullantı suları heç bir təmizləmə prosesi keçmədən dənizə axıdılır.

Lənkəran Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Habil Sadıqov bildirib ki, Lənkəran şəhərinə yaxın ərazilərdə, Aşağı Nüvədi qəsəbə ərazisi, Sütəmurdov kəndi, Kiçik bazar ərazisi və digər yerlərdən su nümunələri götürülüb: "Müayinənin nəticəsinə əsasən, götürülmüş su nümunələri dəniz suyunun bakterioloji göstəricilərinə uyğun deyil. Yəni dəniz suyunda çirklənmə müşahidə olunub. Hazırda həmin ərazilərdə çimmək qadağandır. Dəniz kənarında yerləşən ictimai iaşə və digər obyektlər dənizin təmizliyinə nəzarət etməlidirlər".

"İyunun 10-dan başlayaraq çimərliklərin fəaliyyətinə icazə veriləcək".

**Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mayın 25-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.**

Qeyd olunub ki, ötən il çimərliklər üçün tətbiq olunan qaydalar bu il də tətbiq ediləcək.

*Beynəlxalq*

# Universal hüquqlar üçün ilk addım

**Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) və UNİ Qlobal Birliyi tərəfindən həyata keçirilən yeni bir qlobal araşdırma, dünyada işçilərin 98 faizinin COVID-19 ilə mübarizə aparmaq üçün xəstəliyə görə müavinət , maaş təzminatı və sosial müavinət almadığını ortaya çıxardı.**

Araşdırmada iştirak edən hökumətlərin yarıdan çoxu rəsmi tənzimləmə prosesinin bir hissəsi olaraq COVID-19-u peşə xəstəliyi kimi tanıyıblar.

"COVID-19: peşə xəstəliyi" adlı hesabatda qabaqcıl işçilərin ən yaxşı qorunduğu, işçilərin kompensasiya səviyyəsi , sosial təminat proqramları və ictimai səhiyyə sistemlərinin təhlil edildiyi və sıraladığı yerə 124 ölkə, həmçinin ABŞ-ın 37 ştatı, Kanadanın 13 əyaləti və Avstraliyanın yeddi ştatı daxildir.

**Hesabatda ilk beşlikdə olan ölkələr Argentina, Avstriya, İsveç, Fransa və İspaniyadır.**

Ümumilikdə araşdırmada ən yüksək reytinqə malik on yurisdiksiya planetin işləyən əhalisinin yalnız 2 faizini təmsil edir.

**Yarıdan çoxu (98 yurisdiksiya) COVID-19-u rəsmi tənzimləmə prosesinin bir hissəsi olaraq peşə xəstəliyi kimi tanıyır və işdə koronavirusa yoluxmuş insanlara sosial müdafiə və güzəştlərə çıxış, səhiyyə xidmətləri və əməkhaqqı kompensasiyaları kimi imkanlar verir.**

Bu etiraf COVID və xəstəliyin davam edən digər fəsadlarından uzun müddət əziyyət çəkən işçilər üçün xüsusilə vacibdir.

**BHİK və UNİ Qlobal Birliyi qabaqcıl işçilərə ən yaxşı dəstəyi təmin etmək üçün beş əsas tövsiyə təklif edir:**

-COVID-19 xəstəliyi ilə əlaqədar müavinətlərin alınması üçün birbaşa hüquq;

-əmək münasibətlərindən asılı olmayaraq bütün işçilər üçün sığorta;

-etibarlı məlumatların toplanması;

-ümumi peşə yoluxucu xəstəliklər kateqoriyasının qanun və qaydalara daxil edilməsi;

-müayinə və bərpa üçün ödənişli xəstəlik məzuniyyəti.




**BHİK-in Baş katibi Şaran Barrou deyib ki, biz qabaqcıl işçilərin sosial müdafiəsiz qalmasına yol verə bilmərik. Davamlı bərpa işçilərin layiqli müavinət və kompensasiya almaq üçün ən yaxşı şans verən yeni sosial müqavilə tələb edir. Universal hüquqlar üçün ilk addım kimi qlobal sosial müdafiə fondudur. Bunun üçün biz Beynəlxalq Əmək Təşkilatını təcili olaraq COVID-19-u peşə xəstəliyi kimi qəbul etməyə çağırırıq.**

Bir il bundan əvvəl, işçilərin beynəlxalq anım günündə qlobal həmkarlar ittifaqları, o cümlədən UNİ Qlobal Birliyi və BHİK COVID-19-u peşə xəstəliyi kimi tanımağa çağırıb. Bu hesabat onu göstərir ki, tərəqqi var, amma hələ görüləsi işlər çoxdur.

**Digər əsas nəticələrə gəldikdə onu demək olar ki, yalnız 10 yurisdiksiya (5,5%) əməkhaqqının dəyişdirilməsi, tibbi müalicə, xəstəlik və ölüm müavinətləri üçün çox yaxşı şərtlərə görə yüksək qiymət aldı. Xəstəlik üçün ödəniş 104 yurisdiksiyada mövcud idi və bu, işçilərin təxminən 43 faizinin ödənişli xəstəlik məzuniyyətinə çıxışı olmadığı anlamına gəlir.**

Sorğuda iştirak edən yurisdiksiyaların yalnız 6 faizi bütün işçilər üçün tibbi müalicəyə və əməkhaqqının dəyişdirilməsinə avtomatik təminat verən qaydalar, qərarlar, qanunlar və ya siyasətləri nəzərdə tuturdu. Lakin tibb işçiləri nəzərə alındıqda, bu, 17 faizə yüksəldi. Güclü işçi dəstəyinin millətin sərvətindən asılı olmadığını göstərən Argentina ən yüksək bal aldı.

**Almaniyada və Şimali Avropa ölkələrində infeksion xəstəliklər üzrə qüvvədə olan qanunvericiliyə görə, COVID-19-a yoluxmuş işçilər xəstəliyə görə məzuniyyətə, əməkhaqqının dəyişdirilməsinə və tibbi xidmətə avtomatik girişə malikdirlər. İşçilərə dəstək vermək üçün qanunvericiliyə heç bir rəsmi dəyişiklik tələb olunmadı. Bu, ölkənin gələcək pandemiyalara necə hazırlaşa biləcəyinə dair ən yaxşı nümunələrdən biridir.**

# Beynəlxalq Əmək Konfransı onlayn rejimdə işə başlayıb

**COVID-19 pandemiyasının səbəb olduğu məhdudiyyətlər səbəbindən 109-cu Beynəlxalq Əmək Konfransı ilk dəfə olaraq onlayn rejimdə keçirilib.**

Mərakeş Krallığının Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq təşkilatların Cenevrədəki səfiri və daimi nümayəndəsi Ömər Zniber 2021-ci il mayın 20-də keçirilmiş ilk iclasda konfransın prezidenti seçilib. O, bunu öz ölkəsi və bütünlüklə Afrika üçün qürur mənbəyi adlandırıb.

"Deyildiyi kimi, Beynəlxalq Əmək Konfransı üzv dövlətlərin hökumətlərinə, işəgötürənlərə və işçilərə sosial və əmək məsələləri, eləcə də iş dünyası ilə bağlı məsələlər üzrə üçtərəfli diskussiyalar aparmaq üçün unikal imkan verən qlobal işçi parlamentidir",- deyə Ömər Zniber bildirib.

**O vurğulayıb ki, hamımızın çox yaxşı bildiyimiz səbəblərdən bu il konfransımız xüsusi bir əhəmiyyət kəsb edir. Növbəti bir neçə həftə ərzində görəcəyimiz işə böyük ümidlər bəslənilir. Mən işlərimizi bu ruhda istiqamətləndirmək və konfransın uğurunu təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.**

Beynəlxalq Əmək Təşkilatının (BƏT) Baş direktoru Qay Rayder Konfransa və onun yeni seçilmiş prezidentinə işlərində uğurlar arzulayıb. O deyib : "Ötən il



sessiyanın təxirə salınmasından sonra, hesab edirəm ki, BƏT-in bütün üçtərəfli iştirakçıları - hökumətlər, işəgötürənlər və işçilər ümumi qətiyyəti bölüşüblər ki, konfrans bu ərəfədə davam etməlidir. Çünki bizim mühüm iş planımız var və təşkilatımız institusional ardıcıllıqdan çox asılıdır.

Cənab Prezident, rəhbərliyiniz altında keçirilən bu Konfransın uğuru ilə BƏT irəliyə daha bir addım atacaq. Və bu, son bir ildə iş dünyasını viran qoyan COVID-19 pandemiyasının aradan qaldırılması üçün son dərəcə əhəmiyyətli bir addım olacaq. Bununla da daha yaxşı irəliləyişə həlledici töhfə verəcək".

**Sessiya zamanı təşkilati məsələlərə də baxılıb. Çad Blekman (Barbados) hökumət qrupunu, Annet Çipeleme (Zambiya) işçiləri, Ronni Qoldberq (ABŞ) işəgötürənlər qrupunu təmsil edəcək.**

Sessiya komitə və işçi qruplarının vəzifəli şəxsləri təyin edildikdən sonra bağlanıb. O, iyunun 3-də konfransın komitələrinin əksəriyyəti öz işinə başlayanda açılacaq və iki həftə yarım davam edəcəkdir.

Plenar iclas iyunun 7-dən 19-dək davam edəcək.

İyun ayının gündəliyinə COVID-19 ilə bağlı BƏT-in tədbirləri haqqında xüsusi yekun sənəd, İnzibati Şura sədrinin və baş direktorun hesabatlarının müzakirəsi , BƏT-in 2022-2023-cü illər üçün proqram və büdcəsi , sosial müdafiənin dövri müzakirəsi, həmçinin pandemiya ilə bağlı diskussiyalar zamanı ölkələrin əmək standartlarının tətbiqi barədə hesabatlar daxildir.

**Konfransın ikinci seqmenti noyabrın 25-dən dekabrın 11-dək keçiriləcək və onun gündəliyinə bərabərsizlik və əmək dünyası, həmçinin həyat boyu bacarıq və təlim haqqında tematik diskussiyalar daxil olacaq.**

# Pandemiyadan varlananlar



**Koronavirus vaksini istehsalı ilə əczaçılıq şirkətlərinin qazanclarının artması nəticəsində dünyada doqquz yeni milyarder meydana gəlib.**

Bu barədə məlumat müxtəlif hüquq müdafiə, humanitar və tibb təşkilatlarının daxil olduğu "The People's Vaccine Alliance" hərəkatının məruzəsində yer alır.

**Yeni milyarderlər sırasına ABŞ-ın "Moderna" şirkətinin dörd nümayəndəsi - Baş direktor Stefan Bansel, həmtəsisçi Nubar Afeyan, həmçinin sərmayəçilər Timoti Springer və Robert Langer daxil olub. Siyahıda həmçinin "BioNTech" şirkətinin rəhbəri Uğur Şahin, İspaniyanın "Rovi" əczaçılıq şirkətinin Baş direktoru Huan Lopes-Belmonte və Çinin "CanSino Biologics" şirkətinin üç həmtəsisçisi yer alıb.**

Yeni milyarderlərin varidatının ümumi həcminin 19,3 milyard dollara çatdığı bildirilir.

Bu da aşağıgəlirli ölkələrdə bütün insanların 1,3 dəfə tam şəkildə peyvənd olunması üçün kifayətdir. Bununla yanaşı, bu ölkələr mövcud dozaların böyük çatışmazlığı səbəbindən ümumdünya peyvəndlərinin cəmi 0,2 faizini alıblar, baxmayaraq ki, onlarda dünya əhalisinin 10 faizi yaşayır.

**Bundan əlavə, COVID-19 peyvəndlərinə qarşı əczaçılıq korporasiyalarında geniş portfellərə malik səkkiz milyarderin ümumi vəziyyəti 32,2 milyard dollar artıb ki, bu da Hindistanın bütün sakinlərinin tam peyvənd edilməsi üçün kifayətdir.**

Əczaçılıq firmalarının səhmləri COVID-19 vaksinlərinə qarşı böyük mənfəət gözləyərək sürətlə artır, bu firmaların monopoliya nəzarətinə malik olduğu vaksin milyarderləri yaradılır. Alyans xəbərdarlıq edib ki, bu inhisarlar əczaçılığı məhv edir. Korporasiyalar vaksinlərin tədarükünə və qiymətinə tam nəzarət edir, öz gəlirlərini artırır, eyni zamanda yoxsul ölkələrə lazımi ehtiyatların təmin edilməsini çətinləşdirir.

**Bu ayın əvvəlində ABŞ Cənubi Afrika və Hindistanın Ümumdünya Ticarət Təşkilatında bu inhisarların müvəqqəti məhv edilməsi və COVID-19 vaksinlərinə patentlərin ləğv edilməsi ilə bağlı təkliflərini dəstəklədi. Bu addım 100-dən çox inkişaf etməkdə olan ölkə tərəfindən də dəstəklənib.**

Buna baxmayaraq, Böyük Britaniya və Almaniya da daxil olmaqla, digər zəngin ölkələr hələ də bu təklifi bloklaşdırır və əczaçılıq şirkətlərinin maraqlarını bütün dünyadan üstün tutur.

Pandemiya kütləvi şəkildə insan ölümünə səbəb olmaqda davam edir, buna baxmayaraq, mənfəət hələ də həyatı xilas etməkdən üstün tutulur.

**Qeyd edək ki, 2020-ci ilin martında Ümumdünya Səhiyyə Təşkilatı yeni koronavirusun yayılmasını pandemiya elan edib. Pandemiyanın statistikasını aparan Worldometer saytının məlumatına əsasən, indiyədək dünyada 166 milyon 513 min yoluxma və 3 milyon 458 min ölüm faktı qeydə alınıb, 147 milyon 304 min nəfər isə COVID-19 xəstəliyindən sağalıb.**

Səhifəni hazırladı: Azər MUSTAFAYEV

Nekroloq



**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Azərbaycanda arxeoloji abidələrin toplusu sektorunun rəhbəri, müəssisənin həmkarlar ittifaqı təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərov uzun sürən xəstəlikdən sonra 68 yaşında vəfat edib.**

Abuzər İbrahim oğlu Ələkbərov 1953-cü il iyunun 25-də Qərbi Azərbaycanın Keşişkənd bölgəsinin (indiki Ermənistanın Yeğeqnadzor rayonu) Amağu kəndində anadan olub. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib, iki il Sabirabad rayonunda tarix müəllimi işləyib, sonra isə Azərbaycan Elmlər Akademiyası (indiki AMEA) Tarix İnstitutunun əyani aspiranturasına daxil olub. Müxtəlif illərdə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda sektor rəhbəri vəzifəsində, Fransanın Sen-Jermen Milli Arxeoloji Muzeyində Azərbaycandan olan tapıntıların monitorinq qrupunda çalışıb. Azərbaycan arxeologiya elmini Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, Türkiyə, İran, Fransa və başqa ölkələrdə keçirilən elmi konfranslarda təmsil edib.

**20 ildən artıq Arxeologiya və Etnoqrafiya İnstitutunun həmkarlar ittifaqı təşkilatının sədri, AMEA Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin və Məclisinin, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) Məclisinin, həmçinin Yeni Azərbaycan Partiyasının üzvü olub.**

Onun Azərbaycan həmkarlar ittifaqı hərəkatının inkişafında xidmətləri də yüksək qiymətləndirilib. 2004-cü ildə ilk kollektiv müqavilənin 100 illiyi nəzərə alınaraq AHİK tərəfindən Fəxri Fərmanla, 2015-ci il oktyabrın 21-də ölkə başçısının Sərəncamı ilə Abuzər Ələkbərov "Tərəqqi" medalı ilə təltif edilib. Müxtəlif vaxtlarda AMEA-nın Azad Həmkarlar İttifaqının Fəxri fərmanlarına layiq görülüb.

**A.Ələkbərovun vəfatından kədərləndiyimizi bildirir və ailəsinə dərin hüznlə başsağlığı veririk.**

***AMEA Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin üzvləri***








## "Səyahət" (Nabran) İstirahət Mərkəzi dəvət edir

**"Səyahət" İstirahət Mərkəzi "Dostluq" Turist Bazasının yaxınlığında yerləşir. Pandemiya zamanı karantin qaydalarına uyğun olaraq turist qəbulu həyata keçirilir. Sahilə və meşəyə çıxışları var.**

*Turistlərə yüksəkixtisaslı peşəkar aşpazlar və ofisiantlar xidmət göstərir.*

***Gündə üç dəfə yemək verilir.***

*Səhər naharının menyusuna təbii bal və qaymaq da daxildir. Həftədə iki dəfə kabab verilir.*

**Otaqlarda kondisioner, televizor, soyuducular qoyulub. İsti və soyuq su daimidir.Turistlər müxtəlif növ əyləncələrlə məşğul olmaq imkanına malikdirlər.**

*İstirahət mərkəzi may ayının 25- dən turistləri qəbul edir. Bir nəfər üçün bir günün qiyməti, otaqlardan asılı olaraq, 30-35 AZN-dir. Ödənişlər nağd və köçürmə yolu ilə həyata keçirilir.*

*İstirahət mərkəzi Wi-fi ilə təmin olunub.*

**Əlaqə telefonları: (050/055/070) 334-66-96**


# "Azərbaycan əsgəri" bədii-qiraət müsabiqəsi



**Bu il Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları "Azərbaycan əsgəri" bədii-qiraət müsabiqəsinə daha ciddi hazırlaşmışdılar.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Lisey rəisinin İdeoloji iş və mədəni psixoloji təminat üzrə müavini Müslüm Nəsibov hərbi məktəbin tarixi haqqında qısa məlumat verib. Qeyd edib ki, qarşıda liseyin 50 illik yubiley tədbirinə hazırlıq işləri gedir. O, qürur hissi ilə bildirib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə liseyin məzunları rəşadət göstərərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" adlarına layiq görülüb, orden və medallarla təltif olunublar.

Bu yazının müəllifi çıxış edərək Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və onun sədri, millət vəkili Səttar Möhbalıyevin adından hamını salamladı və onları 44 günlük müharibədə Azərbaycanın tam Qələbə çalması münasibətilə təbrik etdi. Qeyd etdi ki, AHİK-in mədəni hamiliyə götürdüyü C.Naxçıvanski adına Hərbi Liseydə hər il müxtəlif mədəni-kütləvi tədbirlər, müsabiqələr, idman yarışları keçirilir. Belə tədbirlərdən biri də "Azərbaycan əsgəri" bədii-qiraət müsabiqəsidir.

**Sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, səhnə danışığı kafedrasının müdiri, əməkdar artist Azad Şükürov çıxış edib.**



Daha sonra müsabiqə keçirilib, qaliblər müəyyən olunub.

Əjdər Olun "Azərbaycan" şeirini kompozisiya formasında hazırlayaraq çox böyük coşqunluqla ifa edən 242-ci taqımın 2-ci kurs kursantı İltifat Mirzəyev birinci olub.

261-ci tağımın 2-ci kurs kursantı Rəşadət Həsənov və 114-cü taqımın 1-ci kurs kursantı Sübhan Ağayev T.Qusarçaylının "Azərbaycan bayrağı" və Gülsəda Quluqızının "Zəfər tarixi" şeirlərini ifa edərək II yeri tutublar.

**125-ci, 131-ci və 135-ci tağımların 1-ci kurs kursantları Azər Rzayev, Turan Əsədov və Rəşad Məlikli Elvin Elxan oğlunun "Şəhidlər ölmür", Gülsəda Qulu qızının "Mərd igidlərim", Yaqut Bahadurqızının "Şəhid anası" şeirləri ilə III yeri bölüşüblər.**

Digər 5 kursant həvəsləndirici mükafatlara layiq görülüblər. Liseyin ana dili və ədəbiyyat fənn bölməsinin rəisi, polkovnik-leytenant Ceyran Abbasova və lisey rəisinin İdeoloji iş və mənəvi psixoloji təminat üzrə müavini Müslüm Nəsibov AHİK-in fəxri diplomları ilə təltif olunublar.

**AHİK-in diplom və qiymətli hədiyyələri 2020-2021-ci tədris ilinin yekunlarına həsr olunmuş təntənəli toplantıda qaliblərə təqdim ediləcəkdir.**

**Xoşqədəm BAĞIROVA,**
**AHİK-in mütəxəssisi**

# Hüquq məsləhətxanası

**İstirahət günü işə çıxan işçiyə əməkhaqqı necə ödənilməlidir?**

**Əlövsət KƏRİMOV, Sumqayıt şəhəri.**

- Əmək Məcəlləsinin 99-cu maddəsinə əsasən, təbii fəlakətin, istehsalat qəzasının və digər fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, hərbi vəziyyət rejiminin təmin edilməsi, habelə tezkorlanan malların itkisinin qarşısını almaq məqsədilə, Məcəllədə müəyyən edilmiş qaydalara əməl olunmaqla, işçinin iş vaxtından artıq işlərə cəlb edilməsinə yol verilir.

Qeyd edilən və fasiləsiz istehsalatlardan, ticarət, iaşə, rabitə, nəqliyyat və digər xidmət müəssisələri istisna olmaqla, istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günündə işçilərin işə cəlb edilməsi yolverilməzdir.

İstirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü görülən işə görə əməkhaqqı aşağıdakı kimi ödənilir:

əməyin vaxtamuzd ödənilmə sistemində gündəlik tarif maaşının iki mislindən aşağı olmamaqla;

əməyin işəmuzd ödənilmə sistemində ikiqat işəmuzd qiymətlərindən aşağı olmamaqla;

aylıq maaş alan işçilərə iş aylıq iş vaxtı norması çərçivəsində görülmüşsə, maaşdan əlavə gündəlik vəzifə maaşı məbləğindən aşağı olmamaqla, əgər iş aylıq iş vaxtı normasından artıq vaxtda görülmüşsə, maaşdan əlavə gündəlik vəzifə maaşının ikiqat məbləğindən aşağı olmamaqla.

İstirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü işləmiş işçinin arzusu ilə ona əməkhaqqı əvəzinə başqa istirahət günü verilə bilər.

Nəzərinizə çatdırırıq ki, iş vaxtından artıq işlərin görülməsinə cəlb olunmuş işçilər üçün işəgötürən Əmək Məcəlləsinin "Əməyin mühafizəsi" bölməsində nəzərdə tutulmuş normalara uyğun istehsalat və sosial-məişət şəraiti yaratmalı, əməyin təhlükəsizliyini təmin etməlidir.

**İşçilərin attestasiyadan keçirilməsində həmkarlar ittifaqı təşkilatlarının nümayəndələri iştirak edirlərmi?**

**Samir VƏLİYEV, Bakı şəhəri.**

- İşçilərin attestasiyasının keçirilməsi Əmək Məcəlləsinin 65-67-ci maddələri və Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi Qaydaları" ilə tənzimlənir.

Qanunvericiliyə görə, işçilərin attestasiyasının keçirilməsinə hazırlıq işlərində və attestasiya komissiyasında həmkarlar ittifaqı təşkilatlarının nümayəndəsinin iştirakı vacibdir. Belə ki, Qaydaların 2.1. bəndinə əsasən, attestasiyadan keçirilməzdən əvvəl zəruri hallarda attestasiyanın keçirilməsinin məqsəd, vəzifə və metodlarının izahının işçilərə çatdırılması üzrə tədbirləri özündə cəmləşdirən lazımi hazırlıq işləri görülməlidir.

Həmkarlar ittifaqı təşkilatları tərəfindən bu iş müəssisənin struktur təşkilatları ilə birlikdə təşkil edilir.

İşçilərin attestasiya Qaydalarının pozulması inzibati xəta sayılır və İnzibati Xətalar Məcəlləsinin 192.2. maddəsinə əsasən, işəgötürən tərəfindən işçilərin və iş yerlərinin attestasiyasının keçirilməsi Qaydalarının pozulmasına görə yeddi yüz manatdan min iki yüz manatadək məbləğdə cərimə edilir.

Həmkarlar ittifaqı təşkilatlarının bu işdə iştirak etməməsi, attestasiya Qaydalarının pozulmasına səbəb olan hallardan biridir.

**Ailə başçısını itirməyə görə pensiya alıram. Təkrar nikaha girsəm pensiyamı yenə də ala bilərəmmi?**

**Günay RƏHİMOVA, Şəki şəhəri.**

- Ailə başçısını itirməyə görə pensiya hüququ olan ailə üzvləri "Əmək pensiyaları haqqında" qanunun 14-cü maddəsində göstərilib. 14.1.2. maddəyə əsasən, ata, ana, ər, arvad müəyyən edilmiş pensiya yaşına çatmışdırsa, yaxud I və ya II dərəcə əlilliyi olan şəxsdirsə, onda həmin şəxsin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır.

Lakin həmin Qanunla təyin edilmiş əmək pensiyası və əmək pensiyasına əlavələrin ödənişi 37.8-ci maddədə göstərilən halların yarandığı aydan sonrakı ayın 1-dən dayandırılır.

37.8.3-cü maddəyə görə bunlardan biri də əmək pensiyaçısının dul arvadının (ərinin) nikah bağlaması halıdır. Təkrar nikaha düşsəniz sizə ödənilən ailə başçısını itirməyə görə əmək pensiyası dayandırılacaq.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri sahə Hİ Masallı Rayon Komitəsinin sədri Səfail Eyvazova anası

**ZƏRİFƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri sahə Hİ Xocalı Rayon Komitəsinin sədri İsmayıl Hacıyevə anası

**VƏSMİ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad Hİ Xəzər Rayon Komitəsinin sədri Həzərxan Əbilov sahə Hİ Masallı Rayon Komitəsinin sədri Səfail Eyvazova anası

**ZƏRİFƏ xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səhiyyə İşçiləri Hİ Xəzər Rayon Şurasının sədri Azadə Əhmədova 3 saylı Uşaq Vərəm Sanatoriyasının HİK sədri

**NAZİM AXUNDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7693
Sifariş: 941
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
www.ulfet-az.com
Sərbəst qiymət